DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 01 (375) / YANVAR 2023-CÜ İL

# AZƏRBAYCAN TERROR AKTINI HƏRTƏRƏFLİ ARAŞDIRIR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Türkiyə Respublikasının milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin (TBMM) bir qrup üzvünü videokonfrans formatında qəbul edib.

Görüşün videokonfrans formatında keçirilməsinə səbəb Türkiyə nümayəndə heyətinin üzvlərində COVID-19 testinin nəticəsinin pozitiv çıxmasıdır.

Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı Mahmut Özerin və Türkiyə Böyük Millət Məclisinin bir qrup üzvünün ölkəmizə səfərinin önəminə toxunub və bu səfərin əlaqələrimizin daha da genişlənməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Təhsil sahəsində əməkdaşlıqda böyük nailiyyətlərin əldə olunduğunu bildirən Prezident İlham Əliyev iki ölkənin dövlət başçılarının razılaşdırdığı kimi Azərbaycan-Türkiyə birgə universitetinin yaradılmasının böyük önəm daşıdığını deyib.

Mahmut Özer Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş edib.

Mahmut Özer Azərbaycan Respublikasının Tehrandakı səfirliyinin binasında törədilən terror aktı zamanı mühafizə xidmətinin rəhbəri Orxan Əsgərovun həlak olması ilə bağlı Prezident İlham Əliyevə başsağlığı verib.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirib. Prezident İlham Əliyev səfirliyin digər mühafizə əməkdaşının qəhrəmanlığı nəticəsində terrorçunun zərərsizləşdirildiyini və bununla da silahlı şəxsin səfirliyin başqa əməkdaşlarına və onların ailə üzvlərinə hücumunun qarşısının alındığını vurğulayıb. Dövlətimizin başçısı hazırda Azərbaycan tərəfindən bu terror aktının hərtərəfli şəkildə araşdırıldığını diqqətə çatdırıb. Prezident İlham Əliyev vurğulayıb ki, həmin şəxsin səfirliyimizin binasında törətdiyi terror hadisəsi prosesinin xeyli vaxt çəkməsinə baxmayaraq, İranın polis və təhlükəsizlik qüvvələri tərəfindən hər hansı ciddi tədbir görülməyib.

İkinci Qarabağ müharibəsində Azərbaycanın Zəfəri münasibətilə bir daha təbriklərini çatdıran qonaq bildirib ki, xalqlarımız ən çətin dövrlərdə həmişə bir-birinin yanında olub.

Təhsil sahəsində əlaqələrimizin son illərdə çox sürətlə inkişaf etdiyini deyən Mahmut Özer Türkiyənin bu sahədə ölkəmizlə təcrübəsini bölüşməkdən məmnunluq hissi keçirdiyini bildirib.

Görüşdə Şimali Kipr Türk Respublikasının Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilən Zirvə toplantısında təşkilat yanında müşahidəçi statusunun alınması prosesində üzv dövlət kimi Azərbaycanın göstərdiyi dəstəyə görə minnətdarlıq ifadə olunub.

DQİDK SƏDRİ: "HEYDƏR ƏLİYEV İDEYALARI AZƏRBAYCANI YENİ ZİRVƏLƏRƏ YÜKSƏLDİR"



Səh. 3

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARI MİLAD BAYRAMINI QEYD EDİBLƏR



Səh. 5

"ALLAHIN AYI": RƏCƏB



Səh. 9

BÖLGƏLƏRDƏ DİN XADİMLƏRİ VƏ DİNİ İCMA SƏDRLƏRİNİN İŞTİRAKI İLƏ GÖRÜŞLƏR KEÇİRİLİB



Səh. 12

# PREZİDENT İLHAM ƏLİYEV 20 YANVAR FACİƏSİNİN 33-CÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT EDİB



Qanlı 20 Yanvar faciəsindən 33 il keçir. Sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 33-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət edib.

Dövlətimizin başçısı ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini yad edib.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

***

Qanlı Yanvar hadisələrindən 33 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 33 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən təcavüzkar Ermənistanı açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların həlak olması ilə nəticələndi. Sanki, bunları görməyən Azərbaycanın ovaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.

Həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev onlardan fərqli olaraq, həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əslində, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Vətənimizin azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman Azərbaycan Prezidenti İlham Əliyevin diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilib. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncam və fərmanlar verib. Bunun nəticəsidir ki, şəhid ailələrinin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.

## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA 20 YANVAR FACİƏSİNİN İLDÖNÜMÜ İLƏ BAĞLI PAYLAŞIM EDİB




## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA MİLAD BAYRAMI MÜNASİBƏTİLƏ PAYLAŞIM EDİB



# AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi və Azərbaycanın bütün xristian icmasını Milad bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə səadət və firavanlıq arzulayıram.

Tarixən dostluq və qardaşlıq mühitinin, yüksək birgəyaşayış mədəniyyətinin hökm sürdüyü Azərbaycanda ayrı-ayrı xalqların və dini etiqadların nümayəndələri əsrlərlə sülh və əmin-amanlıq şəraitində yaşamışlar. Bu gün dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınan və sivilizasiyalararası münasibətlərin inkişafına əhəmiyyətli töhfələr verən ölkəmizdə dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, hər kəs bərabər hüquq və azadlıqlara malikdir. Cəmiyyətimizdə yüz illər boyu təşəkkül tapmış mədəni müxtəlifliyin, yüksək humanizm prinsiplərinin, zəngin tolerantlıq ənənələrinin qorunub saxlanılması və təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanın digər etnik-dini qrupları kimi xristian həmvətənlərimiz də öz adət-ənənələrini, dil və mədəniyyətini yaşadaraq ictimai-siyasi həyatımızın bütün sahələrində yaxından iştirak edir, respublikamızda gedən böyük inkişaf və quruculuq prosesində vətəndaşlıq borcunu layiqincə yerinə yetirirlər.

Əziz dostlar!

Milad bayramı yeniliyin, paklığın, mərhəmət və xeyirxahlıq duyğularının rəmzidir. Bu müqəddəs gün münasibətilə bir daha hamınıza bayram təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 4 yanvar 2023-cü il

# MÜBARİZ QURBANLI: “MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ HEYDƏR ƏLİYEVİN GƏRGİN ZƏHMƏTİNİN, QƏTİYYƏTLİ SİYASƏTİNİN BƏHRƏSİDİR”

“Müstəqil Azərbaycan dövləti Ulu Öndər Heydər Əliyevin gərgin zəhmətinin, qətiyyətli siyasətinin bəhrəsidir”.

Bu sözləri “Report”a açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

Onun sözlərinə görə, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı Azərbaycan tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi daxil olub:

“Ulu Öndər müstəqil Azərbaycanın inkişafının təməl prinsiplərini formalaşdırıb, xalqımız və dövlətimiz naminə misilsiz xidmətlər göstərib. Heydər Əliyevin uğurlu daxili və xarici siyasət strategiyasının sayəsində ölkəmiz iqtisadi inkişafa, daxili siyasi sabitliyə və əmin-amanlığa, milli-mənəvi dəyərlərə qayıdışa, bu dəyərlərin qorunmasına nail olub. Ümummilli Liderin 1993-2003-cü illərdəki rəhbərliyi dövründə ölkəmizin keçdiyi inkişaf yoluna, qazanılan nailiyyətlərə nəzər saldıqda görürük ki, Azərbaycan, sözün əsl mənasında mühüm zirvələr fəth edib, beynəlxalq münasibətlər sistemində söz və nüfuz sahibinə çevrilib. Bütün bunların nəticəsidir ki, müstəqil dövlətimiz 1993-cü ildən başlayaraq inkişaf yolunda inamla irəliləyir və qazanılan möhtəşəm uğurlar ölkəmizin qüdrətinin daha da artmasını təmin edir. Ölkəmizdə həyata keçirilən böyük tədbirlər məhz Heydər Əliyev irsinin həmişəyaşar, əbədi olduğunu bir daha sübut edir. Ulu Öndərimizin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı onu təkcə Azərbaycan xalqının deyil, bütün dünya azərbaycanlılarının Liderliyinə yüksəldib. Heydər Əliyevin ömür yolu Vətənə xidmətin parlaq nümunəsinə çevrilib”.

Heydər Əliyev yolunun müstəqil Azərbaycanın inkişafını müəyyən edən konseptual proqram olduğunu nəzərə çatdıran qurum rəhbəri bildirib ki, 2023-cü ilin Azərbaycanda “Heydər Əliyev İli” elan edilməsi Ulu Öndərin şəxsiyyətinə, onun siyasətinə xalqımızın dərin ehtiramının ifadəsidir:

“Müasir dövrdə ölkəmizdə sosial, iqtisadi, daxili və xarici siyasət, gənclər və gender məsələlərində dahi şəxsiyyətin müəyyən etdiyi xətt əsas götürülməklə Prezident İlham Əliyev tərəfindən yeni dövrün – XXI əsrin çağırışlarını özündə əks etdirən siyasət həyata keçirilir. Ölkəmizin inkişaf strategiyasının müəllifi də məhz Ümummilli Liderimizdir. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi prinsiplər - azərbaycançılıq ideologiyası, qanunçuluq, hakimiyyətin mənbəyinin xalq olması, vətəndaş həmrəyliyi dövlətçiliyimizin təməl prinsipləridir. Bu prinsiplər ölkəni daim irəliyə aparır və Prezidentimiz İlham Əliyevin siyasəti də bu təməllərə söykənir. İşğal altında olan torpaqlarımızın düşmən tapdağından azad edilməsi Ulu Öndərin siyasətində ən vacib istiqamətlərdən birini təşkil edirdi. Heydər Əliyev çıxışlarında işğal edilən torpaqlarımız barədə danışarkən Şuşanı xüsusilə vurğulayırdı. 44 günlük Vətən müharibəsinin nəticəsində biz torpaqlarımızı işğaldan azad etdik. Bütün bunlar Ulu Öndərin siyasətinin məntiqi davamıdır ki, bunu da Ali Baş Komandan İlham Əliyev uğurla yerinə yetirdi. Bu gün Azərbaycan nəinki regionun lider dövlətidir, eyni zamanda, dünyada böyük nüfuza sahibdir. Respublikamızın dinamik inkişafı bütün sahələri əhatə edir, əhalinin rifahı davamlı olaraq yüksəlir, Azərbaycan gücünü, qüdrətini daha da artırır. Bu siyasətin nüvəsində müstəqil dövlət, onun maraqları, xalqın rifahı, Azərbaycanın gücünün, qüdrətinin daha da artırılması, ölkəmizin bütün dünyadakı həmvətənlərimiz üçün mayak rolunu oynaması dayanır”.




Komitə sədri xatırladıb ki, Prezident İlham Əliyev çıxışlarında Azərbaycanın Ulu Öndərin müəyyən etdiyi yolla getdiyini hər zaman vurğulayır: “Heydər Əliyev yolu respublikamızın müxtəlif sahələrdəki, istiqamətlərdəki fəaliyyətini özündə əks etdirir. Heydər Əliyev siyasəti müasir dövrün çağırışları ilə uzlaşır. Bu irs Prezident İlham Əliyevin siyasəti vasitəsilə daha da zənginləşdirilərək Azərbaycanın inkişafının əsasını təşkil edir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması məqsədilə Prezident İlham Əliyev tərəfindən imzalanan Sərəncamdan irəli gələrək Ulu Öndərin siyasi irsinin öyrənilməsi, təbliği və təşviqi istiqamətində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də mühüm tədbirlər keçirəcəkdir. Müxtəlif istiqamətlər üzrə Heydər Əliyev siyasəti, Heydər Əliyev irsi daha dərindən tədqiq olunacaq, öyrəniləcəkdir. “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı” müxtəlif qurumlar tərəfindən yerli və beynəlxalq əhəmiyyətli forum, konfrans, simpozium, dəyirmi masa və seminarların keçirilməsi, onun həyat və fəaliyyətini əks etdirən veriliş, sənədli film və videoçarxların nümayiş etdirilməsi, Ulu Öndərin irsinə həsr olunmuş əsərlərin, kitabların və monoqrafiyaların nəşr edilməsi kimi mühüm istiqamətləri əhatə edir. Eyni zamanda Yeni Azərbaycan Partiyası tərəfindən bu qəbildən çox mühüm tədbirlərin həyata keçirilməsi planlaşdırılır”.

“Hər bir azərbaycanlı, xüsusilə gənc nəslin nümayəndələri Ümummilli Lider Heydər Əliyevin ideyalarını öz fəaliyyətində rəhbər tutmalıdır. Əminəm ki, 2023-cü ildə bütün cəmiyyətə, əsasən də gənc nəslə Ulu Öndərin irsi daha geniş şəkildə çatdırılacaqdır ki, bu da Azərbaycan xalqının milli sərvəti, tükənməz xəzinəsi olan Heydər Əliyev dühasından gələcək nəsillərin bəhrələnməsi üçün böyük əhəmiyyət daşıyır”, - deyə M.Qurbanlı vurğulayıb.

# DQİDK SƏDRİ: “HEYDƏR ƏLİYEV İDEYALARI AZƏRBAYCANI YENİ ZİRVƏLƏRƏ YÜKSƏLDİR”




Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsinə, müqəddəs mirasına yüksək ehtiram əlaməti olaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması məqsədilə Prezident İlham Əliyev tərəfindən imzalanan Sərəncama əsasən, dahi Liderin siyasi irsinin öyrənilməsi, təbliği və təşviqi istiqamətində çox böyük işlər görəcəyik. Müxtəlif istiqamətlər üzrə Heydər Əliyev siyasəti, Heydər Əliyev irsi daha dərindən tədqiq olunacaq, öyrəniləcəkdir.

Bu sözləri 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsinin əhəmiyyəti barədə öz fikirlərini paylaşan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Mübariz Qurbanlı Yeni Tv-nin qonağı olarkən səsləndirib.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ ABŞERONDA VƏTƏNDAŞLARLA GÖRÜŞÜB



Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yanvarın 25-də Sumqayıt şəhəri və Abşeron, Xızı, Qubadlı, Zəngilan rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbula gələn vətəndaşlar dini maarifləndirmə işinin genişləndirilməsi, İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölməsinin rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

# DÖVLƏT KOMİTƏSİNİN KOLLEKTİVİ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT EDİB



*20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və tabeliyindəki qurumların rəhbərliyi və kollektivi Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsini dərin ehtiramla yad edib, məzarları üzərinə güllər düzüblər.*



# DQİDK-NIN ŞÖBƏ MÜDİRİ SADİQ MİRZƏYEV: “CƏMİYYƏT VƏ DİN” QƏZETİ ELEKTRON FORMATA KEÇİR



“Cəmiyyət və din” qəzeti hər ayın sonu çap olunurdu. Bu ildən elektron formata keçirik və yanvar ayının sonundan etibarən ayda bir dəfə işıq üzü görəcək. Qəzetdə ənənəvi rubrikalarla yanaşı, yeni rubrikalar da hazırlanacaq. Hazırda bununla bağlı müzakirələr aparırıq”.

Bu sözləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev DQİDK-nın mətbu orqanları barədə “Hafta.az” onlayn ictimai-siyasi qəzetinə açıqlamasında bildirib.

Qəzetin maliyyə xərclərinin hansı formada qarşılandığına gəlincə, S.Mirzəyev deyib ki, indiyədək bunu qəzetin təsisçisi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi təmin edirdi:

“Bu ildən biz elektron formata keçirik. Eyni zamanda, bizim “Dövlət və Din” adlı jurnalımız da var. Jurnal dinşünaslıq, dinin tarixi və fəlsəfəsi ixtisasları üzrə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyatdan keçib. Jurnalımız da elektron formatda işıq üzü görəcək. Bu il jurnalın saytının yaradılması da nəzərdə tutulub. Hər iki nəşrin təsisçisi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsidir. Bu nəşrləri Dini maarifləndirmə işinin təşkili şöbəsi hazırlayır. Nəşrin hazırlanmasında şöbənin əməkdaşları iştirak edirlər. Hər iki nəşrdə Komitə əməkdaşları ilə yanaşı, kənar müəlliflərin yazıları dərc olunur. Şöbədə həmin nəşrlərin dərci ilə əlaqədar redaksiya işləri icra edilir, kənar müəlliflərin əlyazmalarının qəbulu və redaktəsi texnologiyasına uyğun istehsalat-yaradıcılıq prosesi aparılır və nəşrlərin profilinə uyğun gələn yazılar işıq üzü görür”.

Sözügedən nəşrlərin Media Reyestrində qeydiyyatdan keçib-keçmədiyinə gəlincə, qurum rəsmisi deyib ki, bu məsələ müzakirə olunmaqdadır.

# CBC TV-DƏ İSVEÇDƏ QURANİ-KƏRİMƏ QARŞI EDİLƏN TƏHQİRAMİZ HƏRƏKƏTİN YOLVERİLMƏZLİYİ BARƏDƏ MÜZAKİRƏLƏR APARILIB

CBC TV Azerbaijanın “Aspektı inostrannıx del” verilişinin növbəti buraxılışında İsveçdə Qurani-Kərimə qarşı edilən təhqiramiz hərəkətin yolverilməzliyi barədə müzakirələr aparılıb.

Verilişə qonaq qismində qatılan Azərbaycan Gürcü yəhudiləri dini icmasının sədri ravvin Zamir İsayev və “Bakı şəhəri Yeni Apostol” xristian dini icmasının sədri Svetlana Stepanova islamofobiya əlaməti olaraq müqəddəs kitabın yandırılmasını pisləməklə yanaşı, Azərbaycanda yaşayan hər bir xalqın inancına, milli mənsubiyyətinə hörmətlə yanaşılması, eyni zamanda bu dəyərlərin qorunub inkişaf etdirilməsinə yaradılan şəraitin önəmi barədə öz fikirlərini bölüşüblər.

# PODQORİTSADA 270 İLDƏN SONRA İLK DƏFƏ MƏSCİD İNŞA OLUNUR



Monteneqronun paytaxtı Podqoritsada 270 ildən sonra ilk dəfə məscid tikilir.

Sonuncu məscidin XVIII əsrdə tikildiyi şəhərdə Osmanlı dövrü abidələrindən biri olan Bəylər məscidi Monteneqro İslam Birliyi tərəfindən əvvəlki yerində yenidən inşa edilir. Sonradan “Hadroviç məscidi” kimi tanınan bu tarixi bina XX əsrin ortalarında sökülmüşdü.

Podqoritsanın Drač rayonunda tikintisinə başlanılan məscid 270 ildən sonra Monteneqro paytaxtında inşa edilən ilk islami tikili olacaq. Məscidin inşası üçün 130 min avro ianə toplanıb, layihənin dəyəri təxminən 620 min avro qiymətləndirilir. Tikinti işlərinin gələn ilin sonunadək başa çatdırılması nəzərdə tutulur.

# MÜDAFİƏ NAZİRLİYİ İLƏ DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ARASINDA BİRGƏ TƏDBİRLƏR PLANI İMZALANIB

Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında Azərbaycan Ordusunda dini radikalizmə qarşı mübarizəyə dair 2023-cü il üçün birgə tədbirlər planı imzalanıb.

Sənədə əsasən, Müdafiə Nazirliyinin tabeliyində olan qoşun (qüvvə) növü, birlik, birləşmə və hərbi hissələrdə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində keçiriləcək tədbirlərin yeri, icra vaxtı və icraya məsul şəxslər müəyyən edilib.

2023-cü il ərzində Azərbaycançılıq ideologiyası, milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə, mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlıq və digər mövzularda tədbirlər keçiriləcək.

# BAKIDA "MÜQƏDDƏS MƏRYƏMİN NURU" ADLI ƏSƏR TƏQDİM OLUNUB



Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin birgə təşkilatçılığı ilə yanvarın 5-də "Müqəddəs Məryəm Ana Katolik Kilsəsi"ndə "Müqəddəs Məryəmin nuru" adlı əsərin təqdimatı olub.

Tədbirdə ölkəmizdəki müxtəlif dini konfessiyaların nümayəndələri iştirak ediblər.

Təqdimat mərasimində çıxış edənlər tolerantlıq nümunəsi olan Azərbaycanda multikultural dəyərlərə və ənənələrə həssaslıqla, hörmətlə yanaşıldığını vurğulayıblar. Bildirilib ki, Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan, eyni zamanda, millətlərarası və dinlərarası münasibətlərin inkişaf etdirilməsi baxımından da nümunəvi ölkə kimi xarakterizə olunur. Ölkəmizdə milli və dini müxtəliflik bəzi dövlətlərdən fərqli olaraq insanlar arasında fərq yaradan amil kimi deyil, əksinə, tolerantlıq mühitinin əsas komponentləri olaraq çıxış edir.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, milli və dini tolerantlığı özündə əks etdirən siyasi kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təsadüfi deyil ki, ölkəmizdə müxtəlif xalqların nümayəndələri də bir ailə kimi yaşayırlar.

Qeyd olunub ki, Müqəddəs Məryəm obrazı bəşəriyyət tarixi-ictimai düşüncəsində mühüm və əhəmiyyətli yerə malikdir. İdeallıq haqqında təsəvvürləri öz surətində ifadə edən bu universal obraz Xristianlıq tarixində dəqiq qanunlara əsaslanaraq müvafiq tərzdə vizuallaşıb.

Sonda Kilsəyə Müqəddəs Məryəmin təsviri olan əsər hədiyyə edilib. Əsərin üzərində mavi geyimli və incə qatlarla verilən baş örtüyünün fonunda 12 şüalı günəşli tac, həmçinin onu əhatə edən eyni saylı qızıl ulduzlar vurğulanır.

Qeyd edək ki, Müqəddəs Məryəm katolik kilsəsinə təqdim olunan əsərin müəllifi rəssam, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin baş müəllimi Gülarə Salayevadır. Rəssamın əsas fəaliyyət istiqaməti bədii toxuculuqdur. Yaradıcılığında ənənəvi janr və texnikaların sintezinə meyilli olan Salayevanın əsərləri Azərbaycanda və digər ölkələrdə nümayiş olunur.

# AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARI MİLAD BAYRAMINI QEYD EDİBLƏR



Bakıda və bölgələrdə pravoslav xristianları Milad bayramını qeyd ediblər. Yanvarın 6-dan 7-nə keçən gecə Azərbaycanın bütün pravoslav kilsələrində təntənəli ibadətlər yerinə yetirilib.

Müqəddəs Miradaşıyan Qadınlar Kafedral Kilsəsində keçirilən mərasimdə çıxış edən Bakı Yeparxiyasının katibi arximandrit Aleksi (Nikonorov) bildirib ki, "Bu gecə bütün pravoslav xristianlar, Şərq xristianları İsa Peyğəmbərin mövludunu bayram edirlər. Bu, xristianların səbirsizliklə gözlədikləri ən sevimli və uğurlu bayramlarından biridir".



Milad bayramı Xaçmazda yerləşən "Müqəddəs möcüzəvi Nikolay" pravoslav kilsəsində də qeyd olunub. Ölkəmizin şimal rayonlarında yaşayan xristian icmasının üzvləri kilsəyə gələrək dini ayinlər icra edib, dualar oxuyublar. Bayramla əlaqədar əvvəlcədən xüsusi hazırlıq görülüb, şirniyyatlar bişirilib. Mərasimdə Prezident İlham Əliyevin Azərbaycanın pravoslav xristian icmasına ünvanladığı bayram təbriki oxunub. Vurğulanıb ki, Azərbaycanda xüsusi coşqu ilə qeyd olunan Milad bayramı özündə yeniliyi, əmin-amanlığı, mərhəmət və şəfqət duyğularının təntənəsini təcəssüm etdirir.



***

Dünyanın pravoslav xristianları tərəfindən qeyd edilən İsa Peyğəmbərin mövludu günü - Milad bayramı münasibətilə Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən "Cotari" alban kilsəsində bayram mərasimi keçirilib. Bayram üçün hər kəs toplaşdıqdan sonra dini ayinlərin icrası üçün kilsədə mərasim təşkil edilib. Mərasimdə Alban-Udi icmasının rəhbəri Robert Mobili Milad bayramının mahiyyətindən, tolerantlıq diyarı olan Azərbaycanda dini ayinlərin icrası üçün yaradılan şəraitdən danışıb: "Bu gün Azərbaycan müxtəlif millətlərin, dini konfessiyaların dinc birgə yaşadığı unikal ölkədir. Azərbaycanda bütün dinlərin nümayəndələrinə öz dini etiqad və azadlıqlarını ifadə etmək, dini ayin və mərasimlərini sərbəst yerinə yetirmək üçün şərait yaradılıb. Bu gün bizə çoxlu təbriklər gəlib. Xüsusilə, Prezidentimizin təbrikini qeyd etmək istəyirəm. Həmçinin Mədəniyyət Nazirliyi, Dini Qurumlar üzrə Dövlət Komitəsi, Qafqaz Müsəlmanları İdarəsi, müsəlman icmaları tərəfindən də təbriklər göndərilib. Bilirsiniz ki, Qarabağdakı torpaqlarımızda olan müqəddəs irsimiz, alban kilsələri 30 ilə yaxın əsir idi. Ali Baş Komandanımızın rəhbərliyi, rəşadətli Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində, nəhayət biz o dini ocaqlarımıza gedə bildik, orada ibadət elədik, şəhidlərimizi yada saldıq, şamlar yandırdıq".



***

Gəncə şəhərində yerləşən Aleksandr Nevski adına Rus Pravoslav kilsəsində Milad bayramı qeyd olunub. Gəncədə yaşayan pravoslav xristianlar kilsədə müqəddəs bayramın gəlişini birgə qeyd ediblər. Əvvəlcə Prezident İlham Əliyevin Milad bayramı ilə bağlı təbriki oxunub. Sonra Aleksandr Nevski kilsəsinin dini heyəti İsa peyğəmbərin mövludu ilə bağlı ayinlər icra edib. Pravoslavlar kilsədə şamlar yandıraraq, sülh, əmin-amanlıq və xoşbəxtlik diləkləri ilə dualar oxuyub, xaç suyu içiblər. Vətən müharibəsində şəhid olanların da ruhuna dualar oxunub.

***

Gürcü pravoslav xristian dini icması tərəfindən Qax rayonunun Qaxingiloy kəndindəki "Müqəddəs Giorgi" kilsəsində də Milad bayramı keçirilib.

# AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI AZƏRBAYCAN XALQININ MİLLİ NEOKONSERVATİZMİDİR

*Milli Məclisin deputatı Hikmət Babaoğlunun "Cəmiyyət və Din" qəzetinə müsahibəsi*



**- Hikmət müəllim, bilirsiniz ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilib. İstərdim, söhbətə Ulu Öndərin Azərbaycan üçün xidmətlərinə ekskurs etməklə başlayaq, onun Azərbaycan xalqına bəxş etdiyi töhfələrdən danışaq.**

- 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması, əslində, dövlətçilik tariximizin yenidən öyrənilməsi ili kimi xarakterizə olunmalıdır. Çünki Heydər Əliyev böyük dövlət xadimi kimi Azərbaycan dövlətçilik tarixinin ayrıca bir erasını, mühüm bir epoxasını yaradıb. Ulu Öndərin adı Azərbaycanda dövlət, hüquq, həmrəylik, birgəyaşayış kimi məfhumlarla assosiasiya olunur.

Heydər Əliyev elə nadir tarixi şəxsiyyətlərdəndir ki, özündən sonra Azərbaycan üçün böyük miras qoyub. Onun qoyub getdiyi ən böyük miras, heç şübhəsiz, müstəqil Azərbaycan dövlətidir. Bununla yanaşı, azərbaycanlı milli psixologiyasında, milli mənəviyyatında, sosial kimliyində də Ümummilli Liderimiz çox böyük iz buraxıb. Bu baxımdan, 2023-cü ilin "Heydər Əliyev İli" adlandırılması həm də bizim milli yaddaşımızın yenilənməsi baxımından əlamətdar olacaq.

Sovet dövrü tariximizin mühüm bir hissəsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Həmin dövr Azərbaycanın inkişafı, sənayeləşməsi və özünəqayıdışı kimi xarakterizə olunur. Çünki 1969-cu ilə qədər Azərbaycanda iqtisadi münasibətlərin təməlində aqrar faktorlar durduğu halda 1969-cu ildən sonra ölkəmiz sənayeləşmə mərhələsinə qədəm qoydu. Azərbaycanda bir sıra zavodlar, fabriklər inşa edildi və iqtisadiyyatın təşkili prosesində həm də paytaxt Bakı üçün mühüm demoqrafik hadisə baş verdi. Bu, Bakı şəhərinin milliləşməsi hadisəsi idi. Bilirik ki, Bakı Sovet İttifaqında öz kosmopolit göstəriciləri ilə məşhur olan şəhər idi və burada milli mühitin yaradılması zəruri idi. Ulu Öndər bu vəzifənin öhdəsindən gəldi. Bakıda zavod və fabriklərin inşa edildiyi mərhələ həm də Azərbaycanın bölgələrindən gənclərin Bakıya gəlməsini təmin etdi. Beləliklə, Bakı şəhərində demoqrafik balans azərbaycanlıların lehinə dəyişdi. Yəni dolayısı ilə Bakı şəhəri milliləşdi. Mən əminəm ki, vaxtında bu işlər görülməsəydi, sonrakı mərhələdə - 80-ci illərin sonu 90-cı illərin əvvəlində başlayan proses zamanı paytaxtda tamamilə fərqli hadisələr baş verə bilərdi. Heydər Əliyev böyük uzaqgörənliklə həm də bunun qarşısını aldı. Ümummilli Liderin Sovet dövrü Azərbaycanı ilə bağlı fəaliyyətinin iki mühüm istiqaməti vardı. Onlardan biri ölkəmizin sənayeləşməsi idi və bu, əyalətlərlə paytaxt, şəhərlə kənd arasındakı fərqin aradan qaldırılmasına hesablanmışdı. Eyni zamanda, SSRİ Nazirlər Sovetinin 1972-1974-cü illərdə iki qərarının qəbul olunmasına nail olmuşdu. Bunlardan biri Azərbaycanda pambıqçılığın, digəri isə üzümçülüyün inkişafı ilə bağlı idi. Bu qərarlarla SSRİ dövlət büdcəsindən Azərbaycanda bu sahələrin inkişafına xeyli miqdarda pul ayrıldı, nəticədə kəndlərimiz inkişaf etdi, kəndlərimizin siması dəyişdi. Təhsilin keyfiyyəti dəyişdi, yeni savadlı insanlar yetişdi, Azərbaycan dilinin işlənmə səviyyəsi yeni keyfiyyət mərhələsinə qədəm qoydu. Heydər Əliyev 1969-cu ildə Azərbaycan SSR mərkəzi komitəsinin 1-ci katibi seçilərkən ilk nitqini indiki Bakı Dövlət Universitetində, özü də Azərbaycan dilində etmişdi. O dövrdə milli respublikaların rəhbərlərinin öz dillərində nitq söyləməsi görünməmiş hadisə idi. Həmin çıxışında demişdi ki, bu ali təhsil ocağı Azərbaycan xalqının çox böyük ziyalı oğullarının bizə qoyduğu mirasdır. Yəni Sovet dövründə qadağan olunan, dilə gətirilməsi mümkün olmayan Azərbaycan Xalq Cümhuriyyətini xatırladı, ona görə ki, Bakı Dövlət Universiteti məhz 1919-cu ildə AXC tərəfindən yaradılmışdı. 1978-ci ildə Azərbaycan SSR-in yeni qəbul edilən Konstitusiyasına Azərbaycan dilinin dövlət dili kimi daxil edilməsi ilə Azərbaycan xalqının milli özünüdərk prosesi başlandı.

Müstəqillik dövründə ölkəmizin müstəqillik yoluna çıxması hadisəsi də Heydər Əliyevin adı ilə bağlıdır. "Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu və memarıdır" fikri əbəs yerə deyilmir, bu, həqiqətən, belədir. Çünki siyasi elm dövləti və müstəqilliyi, eyni zamanda dövlətlə bağlı olan müxtəlif anlayışları müxtəlif kateqoriyalarda qiymətləndirir: formal müstəqillik, qeyri-formal müstəqillik, formal lider, qeyri-formal lider və s. Bu anlayışların hər birinin özünəməxsus məzmunu var. Biz 1991-ci ildə müstəqilliyimizi elan etmişdik, amma bu, formal xarakter daşıyırdı. Ona görə ki, dövlətin müstəqil siyasəti, hətta Konstitusiyası da yox idi, Sovet dövründəki Konstitusiyadan istifadə edilirdi. Halbuki dövlətin iqtisadi, siyasi, hüquqi münasibətləri, ilk növbədə, Konstitusiya ilə tənzimlənməlidir. Üstəlik, Azərbaycan vətəndaş müharibəsinə cəlb olunmuşdu, torpaqlarımız işğal olunurdu. Ulu Öndərin Azərbaycan xalqının ümumi kütləvi sosial sifarişi ilə hakimiyyətə gəlməsindən sonra dövlətin formal atributlardan çıxarılıb real işlək mexanizmə çevrilməsi hadisəsi baş verdi. Biz müstəqilliyin dadını məhz bundan sonra duymağa başladıq. 1994-cü ildə bu gün qürurla bəhs etdiyimiz "Əsrin müqaviləsi"nin imzalanması ilə isə müstəqil iqtisadiyyatımızın əsası qoyuldu. 1995-ci ildə Azərbaycanın ilk milli Konstitusiyası qəbul olundu.

**- Ümummilli Liderin ən böyük töhfələrindən biri də, heç şübhəsiz, azərbaycançılıq ideologiyasıdır. Hansı ki, Azərbaycan xalqını ən çətin dövrlərdə bir yumruq halında birləşdirib. Ancaq bəzi Qərb fikir adamları iddia edirlər ki, milli ideologiyalar cəmiyyətləri irəli apara bilməz. Sizcə, onların bu düşüncəsinin səbəbi nədir?**

- Milli ideologiya milli həmrəyliyi təmin edən əsas vasitə olduğu üçün çox vacib hadisədir. Sosiologiya deyir ki, milli ideologiya milli identifikasiyadır, yəni düşüncədə milli bənzərliyi təmin edən hadisədir. Bunlar olmadan cəmiyyət vahid orqanizmə çevrilib, lazım gəldikdə ümumi ictimai maraqlar üçün sinxron hərəkət edə bilmir. Sosiologiya milli identifikasiyanı "sosial sement", yəni cəmiyyəti birləşdirən əsas element adlandırır. Cəmiyyət sosial pramida formasındadır. Əgər burada birləşdirici komponent olmasa, o dağılacaqdır. Bax, buna görə azərbaycançılıq Azərbaycanın dövlətçilik və milli ideologiyasına çevrildi. Onun cazibə mərkəzi Azərbaycan xalqının maraqları oldu. Azərbaycançılıq ideologiyası Azərbaycan xalqının milli neokonservatizmidir. Çünki böyük dövlət xadimi Heydər Əliyev azərbaycançılıq ideologiyasını milli ideologiya kimi təqdim edərkən onu müxtəlif komponentlərdən ibarət olan konsepsiya kimi təsbit etmişdi. O deyirdi ki, azərbaycançılıq - Azərbaycan dilinə, tarixinə, mədəniyyətinə sahib çıxaraq və yeni demokratik dəyərləri mənimsəyərək ölkəni inkişaf etdirməkdən ibarətdir. Burada birinci komponent mühafizəkar, ikinci komponent universal Qərb dəyərləri, yəni modernist dəyərlərdir. Beləliklə, konservatizm üstəgəl liberalizm bərabərdir neokonservatizm. Yəni neokonservatizmin düsturu bundan ibarətdir. Azərbaycançılıq da elə budur.

Milli ideologiya bizə həm də ona görə lazım idi ki, totalitar kommunist rejimindən çıxmış cəmiyyət olaraq bizi birləşdirəcək ideologiya axtarırdıq. Bu mənada Heydər Əliyev ən yaxşısını yaratmağı bacardı. Hamını birləşdirəcək və hamı tərəfindən mənimsənilə biləcək konservativ və universal dəyərlər sistemi lazım idi ki, azərbaycançılıq ideologiyası da məhz bunu ehtiva edir. Əlbəttə, bu asan deyildi, birincisi ona görə ki, Qərbdən keçmiş postsovet məkanına manipulyativ demokratiya ixrac edənlər hesab edirdilər, hətta təzyiq edirdilər ki, demokratiya elə ideologiyadır. Demokratiyanı milli ideologiya yerinə qoymağa çalışırdılar. Bəzi ölkələrdə bunun hansı fəsadlara gətirib çıxardığını, ölkələrin necə dağıldığını gördük. Amma əlbəttə ki, demokratiya ideologiya deyil, dəyərlər sistemidir, həyat tərzidir və hüquq hadisəsidir. Amma ideologiya, xüsusilə, milli ideologiya mentalitet və mənəviyyat hadisəsidir, sosial hadisədir. Ona görə də bunlar tamamilə fərqlidir. O dövrdə azərbaycançılıq ideologiyasına qarşı çıxanlar, demokratiyanın özünü ideologiya yerinə qoymaq istəyənlər də var idi. Böyük dövlət xadimi Heydər Əliyevin ən böyük xidmətlərindən biri də azad cəmiyyət yarada bilməsidir. Çünki bütün münasibətlərin, söz azadlığının, mətbuat azadlığının, insan hüquqlarının, dini etiqad azadlığının, gender bərabərliyinin təmin olunması Ulu Öndərin şah əsəri adlandırdığımız Konstitusiyamızla bağlıdır. Şübhəsiz ki, həmin dövrdə ideologiya sahəsində deqradasiyalar, boşluqlar olduğu kimi dini müstəvidə də boşluqlar var idi. Çünki kommunist rejimin təbliğ etdiyi ateist ənənələrdən gələn bir cəmiyyətdə dinin öz həqiqi yerini tapması çox vacib idi. Bu elə bir mühüm platforma olmalı idi ki, biz nə yenidən mövhumata yuvarlanaq, nə də inancımızdan üz döndərək. Bu prosses Heydər Əliyevin Azərbaycan cəmiyyətinə dinlə bağlı təqdim etdiyi siyasət ilə mümkün oldu. Məscidlərin bərpa və təmir olunması istiqamətlərində mühüm addımlar atıldı, bir qədər sonra Ulu Öndərin din xadimləri ilə görüşü oldu. Məscidlərdə çıxışlar etdi. Dinin və etiqad azadlığının Azərbaycan cəmiyyəti üçün nə qədər vacib olduğu məsələlərinə toxundu və müqəddəs Məkkəni ziyarət etməklə əyani nümunə göstərdi. Bütün bunlar isə o dövrdə Azərbaycanda dinlə bağlı axtarışlara yaxşı bir istiqamət vermiş oldu. Amma şübhəsiz ki, dediyimiz hadisələr çox mürəkkəb proseslər fonunda baş verirdi. Azərbaycanda dinlə bağlı müxtəlif sektalar yaradılırdı və bunlar təkcə radikalizmi təbliğ edən müsəlman məzhəbləri ilə bağlı deyildi, eyni zamanda Azərbaycanı Xristianlığın müxtəlif radikal sektaları da hədəfə götürmüşdü. Hətta bəzi ölkələr öz ərazilərində qadağan etdikləri sektalarını burada yaradırdılar. Belə bir mürəkkəb vəziyyətdə azərbaycanlıların dinlə bağlı aydın təsəvvürləri formalaşmalı idi. Heydər Əliyev dini etiqad azadlığını təmin etməklə və bu nümunələri ortaya qoymaqla ölkəmizdə sağlam dini mənəvi mühitin yaradılması üçün böyük imkanlar yaratdı. Bu gün Azərbaycan nadir ölkələrdəndir ki, İslam dininin müxtəlif məzhəblərindən olan vətəndaşlarımız eyni məscidlərdə vəhdət namazı qılırlar. Eyni zamanda, Azərbaycanda yaşayan başqa dinlərin təmsilçilərinə də qarşı çox tolerant mühit var. Bu da bizim dinimizin fəlsəfəsindən irəli gəlir. Çünki bütün səmavi dinlər Qurani-Kərimdə təqdir olunur. Bir sözlə, bu gün Azərbaycan cəmiyyəti din və mənəviyyat baxımından zəngindirsə, buna görə Heydər Əliyevin çoxşaxəli fəaliyyətinə borcluyuq.

davamı səh. 7

# AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI AZƏRBAYCAN XALQININ MİLLİ NEOKONSERVATİZMİDİR

*Milli Məclisin deputatı Hikmət Babaoğlunun "Cəmiyyət və Din" qəzetinə müsahibəsi*

əvvəli səh. 6

**- Qərb liderlərinin dilindən səslənən fikirdir: multikulturalizm iflasa uğradı. Halbuki elə həmin ölkələr ötən əsrin 60-70-ci illərindən etibarən sərhədlərini, xüsusilə, Cənub-Şərqi Asiya ölkələrindən, müsəlman ölkələrindən olan miqrantların üzlərinə taybatay açaraq öz iqtisadiyyatlarını ucuz işçi qüvvəsi hesabına gücləndirməyə nail olmuşdular. Ancaq illər keçdi və biz artıq həmin insanlara qarşı dözümsüzlük nümayiş etdirildiyini görürük. Səbəb nədir?**

- Multikulturalizm çoxmədəniyyətlilik deməkdir və cəmiyyət nəzərə almalıdır ki, onun tərkibində paralel və müstəqil və ya heç olmasa, avtonom mədəniyyətlər olacaq və bunlar bir arada yaşamağı bacarmalıdırlar. Multikulturalizmin fəlsəfəsi elə bundan ibarətdir. Amma Avropada nə baş verdi? Avropa ölkələri müəyyən bir müddətdə öz cəmiyyətlərinin və iqtisadiyyatlarının tələbatını ödəmək üçün miqrantlar qəbul etdilər. Ancaq gəlmələrin sayı artdıqdan sonra Avropada onlara qarşı dözümsüzlük yarandı. Məsələn. Cənub-Şərqi Asiyadan, müsəlman ölkələrindən gələnlərə qarşı münasibət belə idi. Üstəlik, Avropa ölkələrinin bir çoxunun - Fransanın, Böyük Britaniyanın, Almaniyanın, İspaniyanın vaxtilə koloniyaları vardı, ötən əsrin 60-cı illərindən sonra onlar müstəqillik əldə etdilər. İstər-istəməz uzun illər həmin ölkələrin işğalı və müstəmləkəsi altında olan xalqların içində müəyyən zümrə yaranmışdı. Məsələn, Əlcəzair, Yəmən və s. ölkələrdə tutaq ki, fransız dilində danışan və fransız mədəniyyətini mənimsəmiş bir qrup yaranmışdı. Hindistan, Pakistan, Cənub-Şərqi Asiyanın bəzi ölkələri ingilislərin müstəmləkəsi altında olduğundan ingilisdilli bir mühit formalaşmışdı. Onlar hindlidən daha çox ingilis idilər, elə bu gün də biz onun təzahürlərini Böyük Britaniyada görürük. Ötən əsrin 70-ci illərindən sonra avropalılar yeni siyasi nəzəriyyə və siyasi perspektiv müəyyənləşdirdilər. Samuel Hantinqton bunun adını sivilizasiyaların qarşıdurması adlandırdı və dedi ki, XXI əsr sivilizasiyaların qarşıdurması əsri olacaq. Bu, əslində, digər dövlətlər və xalqlar üzərində Avropa hegemoniyasını qurmaq üçün yeni iddia idi. Bu qarşıdurma nəzəriyyəsi siyasətçilər tərəfindən birə-bir həyata keçirilməyə başlandı. İş o yerə çatdı ki, 90-cı illərin əvvəllərində - SSRİ dağılandan sonrakı mərhələdə Avropada yeni bir siyasi ənənə yarandı. İslamofobiya və ksenofobiya siyasi gündəmi təyin etməyə başladı. Beləliklə, kim daha çox islamofob, ksenofob olurdusa, seçicilərdən daha çox səs alırdı. Bu iki komponent bir-birini bəsləməyə başlamışdı. 90-cı illərin sonları 2000-ci illərin əvvəllərində Avropadakı hakim partiyaların adlarına baxın: Xristian Demokratlar, Xristian Mühafizəkarlar və s. Yəni milliyyətçi hərəkatın müxtəlif qolları. Bu gün isə Avropada faşizmi təbliğ edən partiyalar hakimiyyətə gəlməyə başlayıblar və bu, əlbəttə, dözümsüzlüyü daha da artırır. Bir neçə gün bundan əvvəl İsveçdə Qurani-Kərimin yandırılması bunun əyani nümunələrindəndir. Siyasətçilər cəmiyyəti kütləvi şəkildə tərbiyə edən, bir növ, ona yön verən liderlərdir. Onların davranışları da belə radikal cəmiyyət formalaşdırır. Buna görə də avropalılar etiraf etməli oldular ki, multikulturalizm iflasa uğradı. Amma bu onların həm də öz cəmiyyətlərinə ismarıcı idi: bu, iflas edib, artıq bizə lazım deyil. Bu da Avropa cəmiyyətini başqa xalqlara və başqa din mənsublarına qarşı kökləydi, bir növ, stimul verdi. Avropa siyasətçiləri üçün belə şeylər lazım idi, gələcəkdə yeni dünya nizamını qurmaq üçün onların siyasətini, radikalizmi dəstəkləyəcək ciddi kütləvi enerji lazımdır. Avropada multikulturalizm iflasa uğradığı bir mərhələdə Azərbaycanın timsalında yeni bir multikulturalizm modeli yarandı və biz bunu Avropaya çox yaxşı təqdim etməyi bacardıq. Bu da Heydər Əliyevin adı ilə bağlıdır. Çünki multikultural dəyərlərin təbliğ olunması o dövrdə bizə çox lazım idi. Hətta mən düşünürəm ki, çox strateji məsələ, hər şeydən öncə, Azərbaycanın özünün daxili, dini və etnik strukturu ilə bağlı olan tələbat idi. İkincisi, ermənilər həmişə Azərbaycanı ittiham edirdilər və hələ də ittiham edirlər ki, "biz xristian olduğumuza görə orada bir dini dözümsüzlük var, ona görə də biz azərbaycanlılarla yaşaya bilmərik". Azərbaycan multikulturalizminin dünyaya təqdim olunmasında bir məqsəd də göstərmək idi ki, burada çoxsaylı xalqların, müxtəlif dinlərin nümayəndələri yaşayır. Necə olur ki, ermənilərdən başqa, onların hamısı - bütün xristianlar Azərbaycanda çox yaxşı yaşaya bilirlər? Dinindən, əqidəsindən asılı olmayaraq, bütün vətəndaşlarımız Azərbaycan qanunları qarşısında bərabərdir, multikultural ənənələrə sadiqdir, heç kəs heç kəsə mane olmur, amma təkcə ermənilər belə cəmiyyətdə yaşaya bilmir? Bu həm xarici siyasətimizin dəstəklənməsi, həm də Azərbaycanın dünyaya tanıdılması üçün çox vacib mərhələ idi. Amma bu təkcə xarici siyasət məsələsi deyil, həm də hər bir azərbaycanlının həyat tərzidir. Ona görə ki, bizim yaşadığımız bu coğrafiyada hər 3 din vaxtilə dövlət dini olmuşdur. 333-cü ildə - Mömin Vaçaqanın vaxtında biz Xristianlığı dövlət dini kimi qəbul etdik. Roma bizdən təqribən 50 il sonra 383-cü ildə Xristianlığı dövlət dini elan etdi. Bəlkə də xristian dinini dövlət səviyyəsində qəbul edən ilk ölkələrdən biri Azərbaycan olmuşdur, Albaniya olmuşdur. Bundan başqa VI əsrin sonu VII əsrin əvvəllərində Xəzər xaqanlığının tərkibində Yəhudiliyi qəbul etdik, Bulan xan adını dəyişib İosif qoydu. Ondan sonra hakimiyyətə gələnlər də dinlərinə görə yəhudi adlarını mənimsədilər. Başqa bir misal kimi, Nizami Gəncəvinin "Yeddi gözəl" poemasını misal çəkmək olar. Bu əsərdə personajlar müxtəlif xalqların nümayəndələridir: biri türk qızı, biri Çin qızı və s. Bütün bu ənənələr bugünkü mühiti, multikulturalizm ənənələrini formalaşdırıb. Bu ali dəyərlərin təbliği və gücləndirilməsi lazım idi ki, bunun da əsasları dövlət xadimi Heydər Əliyev tərəfindən qoyuldu. Nəticəsini 44 günlük müharibədə bir daha gördük, qürurlandıq, tarix qarşısında bu imtahanı alnıaçıq, üzüağ verməyi bacardıq. Bütün dünya bir daha gördü ki, etnik-dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan hər kəs öz Vətəni üçün öz canını sevə-sevə fəda etməyə hazırdır.

**- Ancaq bu vəhdəti pozmağa çalışanlar da var...**

- Belə təxribatlar Azərbaycana qarşı hər zaman olub.

**- Hətta bugünlərdə Rusiya telekanalında bir erməni iddia edirdi ki, guya Azərbaycan 44 günlük müharibədə əsasən etnik azlıqların nümayəndələrini qəsdən qızğın döyüşlərə atırmış.**

- Müharibə dövründə də, 30 illik münaqişə dövründə də, hətta 90-cı illərin əvvəllərində də onlar Azərbaycanda etnik separatçılığı körükləməyə çalışıblar. İlk növbədə, erməni separatizmini yaratdılar. Amma Azərbaycanın şimalında və cənubunda da etnik əsaslara söykənən separatçılıq var idi. Bu, azmış kimi, Azərbaycanda regional separaçılıq da baş qaldırmışdı. Məsələn, Surət Hüseynovun timsalında Gəncəbasar bölgəsində regional separatçılıq var idi. Ölkəmizi zəiflətmək, Qarabağı və digər bölgələri bizdən qopartmaq, Azərbaycanı xəritədən silmək üçün atılan addım idi. Heydər Əliyevin böyüklüyü həm də onda idi ki, bütün bunların qarşısını almağı bacardı. 1993-cü il iyun hadisələrini yaxşı xatırlayırıq. Regional separatçılığın qarşısı məhz onda alındı. 1994-cü ilin 3-4 oktyabrında ölkəmizin cənubunda baş verən qiyamın da qarşısı alındı. Azərbaycanın şimalında "Sadval" hərəkatı yaradılmışdı, onların qarşısını da aldıq. Bütün bunlar bir daha əminlik yaradır ki, Azərbaycanda yaşayan bütün etnik qrupların genetik yaddaşında birlik, vəhdət var. Onları etnik mənsubiyyətlərinə görə nə qədər ayırmağa çalışsanız da, o birlik özü-özünü qoruyacaqdır.

**- Siz bayaqkı suala cavabınızda çox gözəl ifadə işlətdiniz: necə olur ki, Azərbaycanda bütün dinlərin, xalqların nümayəndələri yaşaya bilir, ancaq ermənilər yox? Bunun kökündə nə dayanır, sırf separatist düşüncə, yoxsa azərbaycanlıya, türkə qarşı nifrət bunların genetik yaddaşına yazılıb?**

- Bunun kökündə çox sadə bir məsələ dayanır. Azərbaycanda yaşayan digər xalqların və dinlərin nümayəndələri əsrlərdir birgə yaşayırlar. Bunun sayəsində dediyimiz milli multikultural model yaranıb. Ancaq ermənilər bu ailə mühitinə süni şəkildə daxil ediliblər. Onlar cəmisi 200 il əvvəl bu ərazilərə köçürülüblər. Ona görə də özlərini bu mühitdə yad hiss edirlər. Bir səbəb də budur ki, ermənilər Cənubi Qafqaza yerləşdirilərkən onlara dövlət quracaqlarına söz verdilər və onlar bu missiya ilə yaşadılar. Erməni psixologiyası birgəyaşayışı ona görə qəbul edə bilmir ki, onların mövcud olması, erməni cəmiyyətinin yaşaması Azərbaycana və İslama nifrət üzərində qurulub. Bu onların əsas "silahıdır".

**- 44 günlük müharibədən danışdıq, dediyiniz kimi, xalq olaraq bu missiyanı alnıaçıq şəkildə icra etdik və bəlkə də tarixdə çox nadir hadisələrdəndir ki, qalib tərəf faktiki olaraq kapitulyasiyaya imza atan tərəfə sülh sazişi bağlamağı təklif etdi. Amma artıq müharibədən 2 ildən çox vaxt keçir və erməni tərəfi müxtəlif manipulyativ hərəkətlərlə, müxtəlif gah o cəbhə gah bu cəbhəyə arxalanmaqla hələ də o sülh sazişinə yaxın gəlmir. Bu şərtlər altında onlarla birgəyaşayış mümkündürmü? Cəmiyyətimiz buna hazırdırmı, sosioloq kimi bu məsələyə münasibətiniz, gözləntiniz nədir?**

- Doğru buyurursunuz, qalib ölkənin sülh təklif etməsi müharibələr tarixində yeni hadisədir, bəlkə də, buna bənzər çox az hadisə olub. Amma məsələ ondan ibarətdir ki, mentalitet etibarilə Azərbaycan xalqı sülhpərvərdir. Böyük xalqların dünyagörüşü də böyük olur və bir başa düşürük ki, tarixin hazırkı mürəkkəb mərhələsində, dünyanın hər yerində müharibələr baş verdiyi bir vaxtda inkişaf etməyin və gələcəyə doğru inamla irəliləməyin düsturu sülhdən keçir. Ona görə biz sülh təklif edirik. Amma ermənilər rədd edir. Şübhəsiz ki, hər bir Azərbaycan ailəsi bu və ya digər formada erməni vandalizmi ilə üz-üzə qalıb. Amma biz böyük xalq olduğumuza görə 44 günlük müharibə dövründə onların cavabını artıqlaması ilə vermişik. Ermənilərin törətdiyi bütün cinayətlərin qisasını almışıq və buna görə də qətiyyətlə deyirik ki, sülhə hazırıq.

# TANIYAQ-TANIDAQ: MƏSCİDLƏRİMİZ

*Əziz oxucular!*

*Bu sayımızdan etibarən sizə yeni – "Tanıyaq-tanıdaq" rubrikamızı təqdim edirik. Yeni rubrikamızda İslam aləminin, o cümlədən ölkəmizin məşhur ibadət məkanları, tanınmış simaları haqqında məlumat veriləcək, həmçinin digər müxtəlif aspektli mövzular işıqlandırılacaqdır.*

*Rubrikamızın ilk yazısı məscidlərə həsr olunur.*

*Məscid ərəb mənşəli söz olub, "səcdə edilən yer" anlamını ifadə edir. Məscidlərin İslam dinində xüsusi yeri vardır. Belə ki, Allah-Təala "Cinn" surəsinin on səkkizinci ayəsində "Şübhəsiz ki, (bütün) məscidlər Allaha məxsusdur..." buyurmaqla onun uca məqamına diqqət çəkmişdir. Həzrət Məhəmməd (s) hədisi-şəriflərinin birində: "Agah olun! Məscidlər Allahın yer üzərindəki evləridir. Onlar göydən yerdəki insanları nura qərq edən ulduzlara bənzəyirlər", - buyurmaqla məscidlərin Allah qatındakı məqamını tərif etmiş və onları bəşəri aydınladan ulduzlara bənzətmişdir.*

*Xalqımız min illər boyu milli kimliyinin bir parçası olan dini dəyərlərə sadiq qalaraq onları qoruyub saxlamışdır. Uzun əsrlər davam edən rus işğalı dövründə dini fəaliyyətə qadağa qoyulmasına baxmayaraq, insanlarımızın qəlbində Allah evlərinə sevgi və bağlılıq əsla azalmamış, onları unutdurmaq heç kimə müyəssər olmamışdır. Yetmiş illik Sovet əsarəti dövründə belə 17-dək məscid təyinatı üzrə fəaliyyət göstərə bilmişdir. Dövlət müstəqilliyimiz bərpa olunduqdan sonra milli-mənəvi dəyərlərimizə böyük qayıdış başlamış, məscidlərimiz inşa və bərpa olunmuşdur. Hazırda ölkəmizdə iki mindən çox məscid fəliyyət göstərir və onların sayında daim artım müşahidə olunmaqdadır. 44 günlük zəfər savaşından sonra dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən işğaldan azad olunmuş bölgələrimizdə 4 yeni məscidin əsası qoyulmuş və digər ibadət evlərinin təmir-bərpasına göstəriş verilmişdir. Təmir-bərpa işlərinin davam etdirildiyi məscidlərimizdən biri – Ağdam "Cümə" məscididir.*

## Ağdam "Cümə" məscidi

Ağdam "Cümə" məscidi 1868-1870-ci illərdə inşa edilmişdir. Memarı Kərbəlayi Səfixan Qarabaği olan məscid ikiminarəli və ikimərtəbəlidir. Məscid binası daşdan, binanın fasad hissəsinin künclərindən qalxan minarələr isə kərpicdən hörülmüşdür. Mərkəz günbəzə dayaq olan dörd sütun daxili məkanın həm tən ortasında kvadrat, həm də yan tərəflərdə ikimərtəbəli eyvanlar yaradır. İbadət zalına baxan və qadınlar üçün nəzərdə tutulan bu eyvanlar da öz növbəsində yuxarıdan günbəzlərlə örtülür. Burada da az qala hər detalda İslam incəsənəti üçün mühüm olan mürəbbe (dördbucaqlı) və dairə münasibətlərinə rast gəlmək olar. İbadət zalı mehrabın kənarlarından və eyvanlardan açılan pəncərələrlə işıqlandırılır. Mehrab tağçasının üzərində binanın dekor tərtibini verən ustad Məhəmməd Nəqqaş Təbrizinin adı və təmir olunduğu il, hicri təqvimlə 1331-ci il (miladi 1913) tarixi həkk olunmuşdur. Mənbələrdə göstərilir ki,



Ağdam "Cümə" məscidinin divarlarını ilkin variantda Kərbəlayi Səfixanın dostu nəqqaş Məhəmməd Şükuhi işləmişdir. Məscidin giriş qapısı Səfəvi memarlığı üçün xarakterik olan iri tağ portalın içindədir.

Memar Kərbəlayi Səfixan Qarabaği 1817-ci ildə doğulmuş, 1910-cu ildə vəfat etmişdir. Onun Azərbaycanın Şuşa, Ağdam, Bərdə, Füzuli şəhərlərində, eləcə də Ukraynanın Odessa və Türkmənistanın Aşqabad şəhərlərində ucaltdığı məscidlər bu gün də memarlıq nümunələri hesab olunur. Kərbəlayi Səfixan Qarabağinin memarlığı əsasında "Qarabağ məscid memarlığı" adlı üslub formalaşmışdır.

Ağdam şəhəri 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş və Azərbaycan memarlığının incilərindən sayılan Ağdam "Cümə" məscidi də erməni təcavüzünün qurbanına çevrilmişdir. Məscidin minarələri daxildən sökülmüş, tavanı bir neçə yerdən uçurulmuş, dizayn və yazıları pozulmuş, hətta təhqir məqsədilə orada donuz belə saxlanılmışdır. Onların bu əməli 1954-cü il qəbul edilmiş "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" Haaqa Konvensiyasının pozulduğunu bir daha təsdiqləyir. Lakin Ağdam şəhəri və sözügedən ibadət evi 20.11.2020-ci il tarixdə öz azadlığına qovuşmuşdur.

## Ağdam rayon, Xındırıstan kənd məscidi

Xındırıstan məscidi 1907-ci ildə bişmiş kərpicdən tikilmişdir. Məscidin daxili sahəsi 158 kv.metrdir. Minarəsi yoxdur, döşəməsi daşla, tavanı taxta ilə işlənmişdir. Məscidin giriş qapısının sol tərəfində divara hörülən kitabənin üzərində ərəb dilində bu sözlər yazılmışdır: "Allaha, aləmlərin Rəbbinə şükür olsun! Allahın salavat və salamı olsun Onun elçisi Məhəmmədə (s.ə.s.) və nəslinə. 1328".

1993-cü ildə Ağdam şəhəri işğal olunduqdan sonra rayon dindarlarının əksəriyyəti cümə namazını qılmaq üçün Xındırıstan məscidinə gəlməyə başlamışlar. Qeyd edək ki, məscid 1923-cü ilə qədər ibadət evi kimi fəaliyyət göstərmiş, sovet dövründə isə uzun müddət ondan pendir sexi kimi istifadə edilmiş, sonra onun binasında diyarşünaslıq muzeyi yerləşdirilmişdir. Dövlət



müstəqilliyimizin ilk ilində - 1991-ci ildən Xındırıstan məscidi yenidən möminlərin istifadəsinə verilmişdir.

## Ağdam rayon, Çəmənli kənd "Cümşüd" məscidi

"Cümşüd" məscidi 1992-ci ildə tikilmişdir. Həyətyanı sahəsi 1 hektar, daxili sahəsi 120 kv.metrdir. Düzbucaqlı məscidin ön və arxa tərəfində 15 metr hündürlüyündə iki şərəfəli minarə ucalır. Minarələr bişmiş kərpicdən hörülmüşdür.



Azərbaycanın tanınmış və nüfuzlu seyid ocaqlarından birinin nümayəndəsi Seyid Lazım Ağa Cümşüd məscidinin yaxınlığında dəfn edilmiş və qəbri üstündə məqbərə tikilmişdir. 2013-cü ildə bu məscid və Seyid Lazım Ağa ziyarətgahı tarixi bir hadisəyə şahidlik etmişdir. İşğala qədər Ağdam və Şuşa məscidlərindən verilmiş azanın audio yazısı bərpa edilərək ilk dəfə bu məsciddən səsləndirilmişdir. Bu gün "Qazi Qarabağ azanı" kimi tanınan həmin azanın təqdimatı üçün ozamankı cəbhə xəttindən 2-3 km məsafədə yerləşən "Cümşüd" məscidinin seçilməsi heç də təsadüfi deyildir. Bu, böyük qayıdışın rəmzi sayılırdı...

Hazırladı: **Vüqar HÜMMƏTOV,**
Dini maarifləndirmə işinin təşkili şöbəsinin baş məsləhətçisi

# MƏHƏMMƏD PEYĞƏMBƏRİN ŞƏKİLLƏRİNİ NÜMAYİŞ ETDİRDİYİNƏ GÖRƏ İNCƏSƏNƏT TARİXİ PROFESSORU İŞDƏN ÇIXARILIB

Minnesota ştatının Sent-Paul şəhərindəki Hemlayn Universitetinin dosenti Erika Lopez Prater Məhəmməd peyğəmbərin (s) orta əsrlərə aid rəsmlərini sinifdə nümayiş etdirdikdən sonra işini itirib. Bu barədə "The Art Newspaper" xəbər verib.

Universitet rəhbərliyinin professorun cari semestr üçün müqaviləsini uzatmamaq qərarı söz azadlığı məsələsinə dair müzakirələrə səbəb olub. "Change.org" saytında professora dəstək üçün ən azı 2500 alim, islamşünaslıq və incəsənət tarixi tələbələrinin imzaladığı petisiya yerləşdirilib. Universitet rəhbərliyi PEN Amerika tərəfindən də tənqid olunub və universitetin bu addımı akademik azadlığın kobud şəkildə pozulması elan edilib.

Quranda açıq şəkildə qeyd edilməsə də, müsəlmanlar arasında təsvirlərdə Peyğəmbərin (s) üzünün göstərilməsi bütpərəstlik əlaməti hesab edilir. Bu səbəbdən məscidlər də həndəsi naxışlarla və Qurandan hissələrin işlənildiyi xəttatlıq nümunələri ilə bəzədilib. İslam təsviri sənətinə nadir halda rast gəlmək olar.

Erika Lopez Praterin şəkilləri 6 oktyabr 2022-ci ildə onlayn mühazirə zamanı göstərdiyi bildirilir. Professor sənət əsərlərinin nümayişindən əvvəl onların məzmunu ilə bağlı iki dəqiqəlik xəbərdarlıq çıxışı edib ki, tələbələr inanclarına zidd olduğunu düşünürlərsə, şəkillərə baxmaqdan imtina etsinlər. Universitetin tələbə qəzeti "Oracle"ın yazdığına görə, Prater slaydı göstərmədən öncə bunları söyləmişdir: "Mən sizə bu rəsmi elə-belə göstərmirəm... İslamın hər hansı bir obrazlı təsviri və ya müqəddəslərin təsvirini tamamilə qadağan etdiyinə dair geniş yayılmış bir fikir var. Bir çox İslam mədəniyyətləri bu praktikanı şiddətlə qınasalar da, xatırlatmaq istərdim ki, vahid İslam mədəniyyəti yoxdur".

Göstərilən sənət əsərlərindən biri Rəşidəddinin XIV əsrə aid "Salnamələr məcəlləsi" adlı əlyazmasından Peyğəmbərə (s) vəhyləri çatdıran mələk Cəbrailin miniatür təsviri olub. Mustafa ibn Vəliyə (XVI əsr) aid olan digər əsərdə isə Məhəmməd peyğəmbər (s) üzündə örtük və başında halə ilə təsvir edilmişdir.

Prater e-poçt vasitəsilə üzr istəsə də, tələbələrdən biri dərsin müsəlman tələbələrə qarşı hörmətsizlik olduğunu əsas gətirərək məsələni universitet rəhbərliyinə qədər qaldırıb. Buna cavab olaraq dekan tələbələrə elektron məktub göndərərək hadisəni "şübhəsiz ki, diqqətsizlik, hörmətsizlik və islamafobiya" kimi pisləyib. Prater isə buna cavab olaraq onun fikrinin təhrif olunduğunu bildirib.

# QƏHRƏMANLAR CAN VERƏR YURDU YAŞATMAQ ÜÇÜN...

Uca Rəbbimiz insanı ən gözəl şəkildə xəlq etmiş, kamilliyini tamamlamaq üçün ona əxlaqi keyfiyyətlər bəxş etmişdir. Həmin əxlaqi keyfiyyətlərdən biri də şücaətdir.

Şücaət hər bir müsəlman üçün zəruri olan yüksək əxlaqi keyfiyyətlərdəndir. Mövlana buyurur ki, şücaət ağıla və hikmətə uyğun olarsa, qəhrəmanlıq nümunəsi olar. Buna görə də insan ona edilən yad təsirlərdən qorxmamalı, lakin qəzəblənərək edilən hücumlara aşırı qarşılıq da verməməlidir.

Şücaət həm də insan iradəsinin mühüm keyfiyyəti olub, zəruri məqamlarda özünü göstərən psixi xüsusiyyətdir. O, qorxu hissinə qalib gəlmək və təhlükəyə qarşı getməkdir. Uca Yaradan tərəfindən bəşər övladına bəxş edilmiş şücaət hissi doğru yerlərdə istifadə olunmalı, diqqət çəkmək və ya nəfsindən dolayı "şücaət göstərilməməlidir". Yəni başqalarını əzmək və güc nümayiş etdirmək üçün deyil, dinin təşviq etdiyi yerlərdə şücaət göstərilməlidir.

Şücaət duyğusunun yoxluğundan doğan qorxaqlığı isə Həzrət Peyğəmbər (s) rəzalət sayaraq, ondan həmişə Allaha sığınmışdır. Belə ki, Allah Rəsulu (s) qorxmadan təkbaşına tövhid bayrağını qaldırmış və cahil cəmiyyətdə məşəqqətli ilahi missiyasını yerinə yetirməyi bacarmışdır. Onun və əshabının sarsılmaz əzmi, cəsarəti və şücaəti qarşısında bütpərəstlik inancı darmadağın olmuşdur.

Üstün əxlaqı ilə bəşər övladına öndər olan Həzrət Peyğəmbər (s) həm də öz şücaəti ilə müsəlmanların ən cəsuru və qorxmazı idi. Belə ki, Allah Elçisi (s) həyatda ikən bütün döyüşlərə qatılmış və müşriklərə qarşı ön sıralarda vuruşmuşdur. Uhud savaşında yaralansa da, döyüş meydanını sonadək tərk etməmişdir. Hətta bir gün Mədinəyə düşmən hücumu gözlənildiyi anlarda vahiməli səs eşidildikdə hamıdan qabaq atına minərək təkbaşına səsin gəldiyi tərəfə doğru getmişdir.

Peyğəmbərimizin (s) elm şəhərinin qapısı kimi vəsf etdiyi Həzrət Əli də (ə) döyüşlərdə göstrədiyi şücaətə görə "Allahın Aslanı" ləqəbini qazanmışdır. Siyər kitablarında onun Allah Rəsulu (s) ilə 26-27 döyüşə qatıldığı xəbər verilir. İmam Əli (ə) şücaəti ilə savaşlarda qazandığı həmin ləqəbi ömrünün sonunadək öz qorxmazlığı ilə qoruyub saxlamışdır.

Vətənimiz də məhz uğrunda savaşaraq canlarından keçən və hər qarışını öz qanları ilə sulayan qəhrəmanlarımızın misilsiz şücaəti ilə azadlığına qovuşmuşdur. Onlar öz şücaəti ilə ölümə meydan oxumuş, tarix yazaraq ona imzalarını atmışlar. Qanları ilə tarix yazan həmin qəhrəmanlarımızdan biri də Ülvi Bünyadzadədir. O, istila və işğalla barışmayan, "cəsarətin bitdiyi yerdə əsarət başlayar" düşüncəsi ilə ayağa qalxaraq Vətənimizin azadlığı üçün meydanlara çıxmış, düşmənlə sonadək əliyalın mübarizə apararaq igidlik səlnaməsi yazmış qəhrəmanlarımızdır biridir.

Yurdu yaşatmaq üçün canından keçən qəhrəmanımız 1969-cu il sentyabrın 23-də tarixi torpağımız olan Göyçə mahalının Kəsəmən kəndində ziyalı ailəsində dünyaya göz açmış, ibtidai təhsilini Kəsəmən kəndində, orta təhsilini isə Daşkəsən şəhərində almışdır. 12-13 yaşlarından sonra o, şeirləri, müxtəlif səpkili bədii və publisistik yazıları ilə "Daşkəsən" qəzetində çıxış etməyə başlamışdır. Ü.Bünyadzadə 1987-ci ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinə daxil olmuş, 1988-ci ilin iyunundan 1989-cu ilin sentyabrınadək hərbi xidmət keçmişdir. Hərbi xidmətdən Bakıya qayıdan Ülvi elə həmin gün mitinqdə iştirak edərək, keçmiş Dağlıq Qarabağ probleminin xalqımız üçün hansı sıxıntı və iztirablar yaratdığının şahidi olmuşdur. O, 10 sentyabr 1989-cu ildə Vətəni və doğma xalqı qarşısında övladlıq borcunu şərəflə, ləyaqətlə yerinə yetirəcəyini vicdan borcu bilərək öz müqəddəs "And"ını yazmışdır.

Ülvi Bünyadzadə Xarici Dillər İnstitutunda Azərbaycan Xalq Cəbhəsinin dayaq dəstəsinin və Şimali Azərbaycan Azad Tələbələr İttifaqının yaradılmasında fəal iştirak edərək həmin qurumların fəaliyyət proqramını hazırlayanlardan biri olmuşdur.

1990-cı il yanvarın 19-da Sovet ordusu Bakı şəhərinə yeridilmiş və onlar dinc, silahsız insanlara divan tutmağa başlamışlar. Bu qanlı cinayət zamanı ürəyi vətən eşqi ilə döyünən gənc şairin də qəlbi namərd gülləsinə tuş gəlmiş və o, şəhidlik məqamına yüksəlmişdir.

Ülvi Bünyadzadə qısa ömrünə olduqca böyük yaradıcılıq irsi yerləşdirmişdir. Belə ki, o, 200-dən çox şeir, "Ömür yolu" adlı poemasını, "Qansızlar" povestini, 40-a yaxın hekayəni, 5 pyes, 20-yə yaxın dünya ədəbiyyatından orijinal tərcüməni (ingilis və rus dillərindən), 7



ədəbi və ictimai məzmunda məqaləni bizə irs olaraq qoyub getmişdir.

Dünya inkişaf edir, cəmiyyət isə dəyişir. Lakin bu inkişaf meyarlarına riayət etməklə yanaşı, vətənpərvərlik və xalqımızın sahib olduğu digər mənəvi dəyərləri də qoruyub saxlamalı, bizdən sonrakılara miras olaraq ötürməliyik. Belə ki, müdriklər tarixi bir millətin yaddaşı hesab etmişlər. Tarixə nəzər saldqda keçmişini və maddi-mənəvi irsini unutmayıb onlara sahib çıxan toplumların qabaqcıl və böyük millətlərdən olduğunu görərik. Bu baxımdan milli kimliyimizin bir parçası olan və dinimizin də bizə sevdirib təlqin etdiyi şücaət, qəhrəmanlıq, vətənpərvərlik və s. dəyərləri yetişən yeni nəsillərə öyrətməliyik.

Hazırladı: **Vüqar HÜMMƏTOV,**
Dini maarifləndirmə işinin təşkili
şöbəsinin baş məsləhətçisi

# "ALLAHIN AYI": RƏCƏB

*"Rəcəb Allahın ayı, şaban mənim ayım, Ramazan isə ümmətimin ayıdır"*
***Həzrət Məhəmməd***



Bu il miladi təqvimlə yanvar ayının 22-dən 23-nə keçən gecə Rəcəb ayına daxil olduq. Hicri təqvimdə 7-ci ay olan Rəcəb həm də müqəddəs "Üç aylar"ın başlanğıcı sayılır. İslam dünyasında əsrlərdir yaşadılan "Üç aylar" ənənəsi möminlərin mübarək Ramazana hazırlıq mərhələsidir. Çünki bu mübarək aylarda müsəlmanların bərəkətli, xüsusi saydığı müqəddəs gecələr vardır. Bu aylar ilahi rəhmətin daha çox ortaya çıxdığı, insanların xeyir əməllərə can atdığı aylardır; insanların mənəvi yüksəkliyə çatması, tövbə etməsi, günahlardan təmizlənməsi üçün fürsətdir.

Ərəb dilindən tərcümədə "qorxmaq; hörmət etmək, ehtiram göstərmək" mənalarını verən "rəcb" kökündən əmələ gəlmiş rəcəb kəlməsi döyüşün haram sayıldığı və hörmət bəslənilən dörd aydan birinin adıdır. Cahiliyyə dövründə Rəcəb ayında insanlar müharibə, basqın etməkdən çəkinər, xüsusilə, ilk on gündə oruc tutar, ümrə ziyarətləri yerinə yetirər, bütlərə qurbanlar təqdim edərdilər. Lap əvvəllər - "Ərəbibaidə" (Ad və Səmud) dövründə Rəcəb ayının "həvbər", "Ərəbi-aribə" dövründə isə "əsamm" (kar) adlandırıldığı, bu ayda döyüşmək, qan tökmək, qəsb etmək haram olunduğu üçün belə adlandırıldığı rəvayət edilir. Ərəblərin Mudar qolundan olan Qureyş kimi qəbilələr Rəcəb ayına digər qəbilələrdən daha çox hörmət bəsləyirdilər. Ona görədə Məhəmməd peyğəmbər (s) bir hədisində bu ayı "rəcəbi-Mudar" da adlandırmışdır.

Quranda rəcəb kəlməsi keçməsə də, müxtəlif ayələrdə haram aylardan bəhs edilir və bu aylara hörmət bəsləmək buyurulur (Məsələn: "Bəqərə", 194, 217; "Maidə" 2, 97; "Tövbə", 5, 36). Allah Rəsulu da (s) hədislərində haram aylar kimi Zilqədə, Zilhiccə, Məhərrəm və Rəcəb aylarını qeyd etmişdir. Bu aylarda edilən yaxşı və ya pis əməllərin digər aylarla müqayisədə daha çox savab, yaxud günah qazandıracağı hamı tərəfindən ümumi qəbul olunmuşdur. Rəcəb ayı daxil olanda Peyğəmbərin "Allahım, bizə Rəcəb və Şaban aylarında bərəkət ver və bizi Ramazana qovuşdur!" şəklində dua etdiyinə dair rəvayət bu ayın fəziləti haqqında ən etibarlı rəvayətlərdən biri kimi qəbul edilmişdir.

İmam Sadiqdən (ə) Həzrət Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: "Rəcəb ayı ümmətimin istiğfar ayıdır. Bu ayda çoxlu istiğfar edin! Allah bağışlayan və mehribandır".

Rəcəb ayının mübarək gecələrindən biri Merac gecəsidir (bu il 17 fevrala təsadüf edəcək). Merac gecəsi Allah-Təalanın Həzrət Məhəmmədi (s) Məkkədəki Məscidül-Həramdan Qüdsdəki Məscidül-Əqsaya apardığı və oradan da onu səmaya qaldırdığı gecədir. Bu gecə Uca Yaradan Öz Rəsuluna böyük həqiqətlərin ilahi sirlərini açmış, ona ayələrini və kainatın sirlərini göstərmiş, möminlərə namazı vacib etmişdir.

Hazırladı: **Güney Namazova**

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2022

## BANDUNQ

İndoneziyanın Qərbi Yava əyalətinin paytaxtı Bandunq Cakarta, Surabaya və Bekasi şəhərlərindən sonra ölkənin dördüncü böyük şəhəridir. Bundan əlavə, Bandunq ölkənin 8 milyondan çox əhalisi olan üçüncü ən böyük metropoludur. Cakartadan təxminən 140 km şimal-şərqdə, dəniz səviyyəsindən 768 metr yüksəklikdə yerləşən Bandunq İndoneziyanın digər şəhərlərindən daha çox ilboyu soyuq temperatura malikdir. "Çiçəklər şəhəri" kimi tanınan Bandunq dağlarla əhatələnmiş çay hövzəsinin kənarında yerləşir.

Bandunqun salınması Hollandiya müstəmləkəçiləri ilə bağlıdır. Şəhərin yerləşdiyi ərazilərdə XVIII əsrdə hollandiyalılara məxsus çay plantasiyaları və əkin sahələri salınmışdır. Bu ərazilər kolonistlərin paytaxtı Bataviyaya bir qədər uzaq olduğu üçün hollandlar burada məskunlaşmağa başlamışlar və Bandunq tədricən torpaq sahibləri üçün kurort şəhərinə çevrilmişdir. Zamanla torpaq sahələrini yaraşıqlı mehmanxanalar, restoranlar, kafelər əvəz etmişdir. XX əsrin əvvəllərində şəhəri "Yavanın Parisi" adlandırmağa başlamışlar.

Şəhərin sərin iqlimi, müxtəlif yeməkləri, qolf sahələri və zooparkları həm indoneziyalıları, həm də xarici qonaqları cəlb edir. Bandunq, həmçinin malayziyalı və sinqapurlu turistlər üçün ucuz tekstil və moda məhsulları səbəbindən məşhur alış-veriş yeridir.

Bandunqun tarixi memarlığının böyük əksəriyyəti müstəmləkə dövründə inşa edilən binalardır. Qədim dövlərə aid memarlıq abidələri olmasa da, XX əsrdən etibarən tikilən binalarda daha çox yerli və Qərb elementlərinin sintezinə rast gəlinir. Şəhərdə yüksək mərtəbəli müasir binaların, ticarət mərkəzlərinin, kollec və universitetlərin inşasına İndoneziya müstəqilllik qazandıqdan sonra başlanılmışdır. Hazırda şəhərdə 100-dən çox yüksək mərtəbəli bina var.

Bandunq şəhərinin memarlıq inciləri arasında ibadət yerləri şəhərə xüsusi möhtəşəmlik bəxş edir. Bandunq əhalisinin əksəriyyətinin müsəlman olduğunu nəzərə alsaq, şəhərdə kilsələrlə yanaşı, bir çox əzəmətli məscidləri görmək olar. Xüsusilə, üç məscid görünüşü ilə digərlərindən fərqlənir.

Bandunq Cümə məscidi. Məscid 1812-ci ildə Bandunqun mərkəzində inşa edilmişdir. İlk inşa ediləndə taxta dirəklər, toxunmuş bambuk divarlar, çoxpilləli saman dam və dəstəmaz üçün böyük gölməçə ilə təchiz edilmişdir. Taxta konstruksiyadan ibarət olan məscid XIX



əsrdə 8 dəfə, XX əsrdə 5 dəfə təmir olunmuşdur. 4 iyun 2003-cü ildə isə Bandunq Böyük Məscidinin indiki binasının açılışı olmuşdur. Məscidin yeni forması əvvəlki üslubdan fərqli olaraq, dörd yerli memarın layihəsi əsasında ərəb memarlığı üslubunda inşa edilmişdir. Layihədə məscidin tarixini qorumaq üçün bəzi keçmiş hissələri saxlanılmışdır. Dəyişiklik əsasən dam örtüyündə aparılmışdır. Keçmiş piramida şəkilli dam diametri 30 metr olan əsas, diametri 25 metr olan köməkçi günbəzlərlə əvəz olunmuş, divarları yüksək keyfiyyətli təbii daşlardan hörülmüşdür. Məscidə xüsusi möhtəşəmlik bəxş edən hissəsi 81 metr hündürlüyü olan qoşa minarələrdir. Bundan əlavə, məscid yeraltı dayanacaq, məscid ətrafı parklarla təchiz edilmişdir. Hazırda məscidin ümumi sahəsi 23,448 m², tikinti sahəsi 8,575 m²-dir. Məscid eyni anda təxminən 13000 nəfəri qəbul edə bilir.

Əl-Cabbar məscidi. Bandunq şəhərinin şərqində yerləşən daha bir əzəmətli məscid əl-Cabbar məscididir. Bu məscid Bandunq şəhərinin Qedebage bölgəsində yerləşir. Ətrafında su anbarı olduğuna görə bəzən "üzən məscid" də adlandırılır. Məscidin adı Allahın 99 adından birinin şərəfinə qoyulub. Tikintisinə 29 dekabr 2017-ci ildə başlanılmışdır. COVID-19 pandemiyası səbəbindən tikinti 2020-ci ildə dayandırılmış, 24 avqust 2021-ci ildən davam etdirilmişdir. 5 illik tikintidən sonra məscidin rəsmi açılışı 30 dekabr 2022-ci ilə təsadüf etmişdir.

Məscidin günbəzi və ümumilikdə fasadının hazırlanmasında balıq pulcuqlarına bənzər 6136 şüşə parçadan istifadə edilmişdir. Hər dörd küncündə isə 99 metr hündürlüyündə minarə inşa edilmiş və Qərbi Yavanın 27 şəhərini simvolizə etmək üçün 27 giriş qoyulmuşdur. Məscidin döşənməsində 100 faiz yundan və sıxlıq səviyyəsi yüksək olan türk xalçalarından istifadə olunmuşdur.

Ümumi sahəsi 21,800 m²-dir. Alt mərtəbəsi 11,300 m², birinci mərtəbəsi 8300 m², asma mərtəbəsi isə 2200 m² sahəni əhatə edir. Eyni zamanda, göl və su anbarlarına ayrılmış sahə 6930 hektar, dayanacaqlar, meydanlar və yaşıllıqlara ayrılan sahə isə 11163 hektardır. Alt mərtəbədə 9800, asma mərtəbədə 3200, zallarda 3600, həyətdə 16400 nəfər yerləşə bilir. Ümumilikdə 33000 nəfər eyni vaxtda ibadət edə bilər. Məscid daşqınlara məruz qalan Qedebage rayonunda yerləşdiyindən daşqınlar zamanı suyu uda bilən 6,9 hektarlıq su anbarı ilə əhatə olunub. Məscidin bağçası və İslam dininə həsr olunmuş muzeyi də var.

Bandunq "Trans Studio" Cümə məscidi. Görünüşü ilə insanları cəlb edən daha bir məscid isə Bandunqun biznes məhəllərindən olan "Trans Studio"da inşa edilmiş cümə məscididir. Məscid indoneziyalı iş adamı Xeyrul Tancunq tərəfindən anasının şərəfinə inşa etdirilmişdir. Tikintisi təxminən 2 il çəkən məscid 2014-cü ilin noyabr ayından istifadəyə verilmişdir.

Məscidin daxili dizaynı Mədinə şəhərindəki "Məscid ən-Nəbəvi"nin möhtəşəm dizaynından ilhamlanıb. Məsciddəki bütün sütunlar Nəbəvi məscidindəki sütunlara bənzər, mükəmməl xəttatlıqla yazılmış Allahın adı və müqəddəs Quran ayələrinin fraqmentləri ilə bəzədilmişdir.

Məscidin bir əsas və dörd köməkçi günbəzi qızıl hissələrlə bəzədilmişdir. Pəncərələr də ağ-qara zolaqlı Peyğəmbər məscidinin ab-havasını daşıyır və oradakı ornamentlərdə qızıl üstünlük təşkil edir. Əsas qapı da Nəbəvi məscidinin əsas qapısından ilhamlanıb.

Bu məscid əsas mərtəbədən 2-ci mərtəbədəki asma mərtəbəyə qədər 2500-ə yaxın ibadət edəni qəbul edə bilər. Aşağıda həmçinin dini mərasimlər, yığıncaqlar və digər tədbirləri keçirmək üçün zal da var.

2022-ci ildə İslam mədəniyyəti paytaxtı seçilmiş Bandunq İndoneziyanın əsas və əhəmiyyətli mədəni mərkəzi hesab olunur.

Hazırladı: **Tural VƏLİZADƏ**

## MÜQƏDDƏS OLQA KİLSƏSİ

Rusiya ilə İran arasında 1828-ci il fevralın 10-da imzalanmış Türkmənçay müqaviləsinə əsasən, Azərbaycanın şimal torpaqları Rusiya tərəfindən işğal edildi. İşğal olunmuş ərazilərdə müstəmləkəçilik siyasətinin tərkib hissəsi kimi özünə etnik dayaq yaratmaq məqsədilə 1830-cu il oktyabrın 20-də Cənubi Qafqaz (Zaqafqaziya) vilayətlərinə rus ailələrinin köçürülməsi haqqında hökumət sərəncamı verildi. Sərəncama əsasən, çoxlu sayda rus ailəsi Cənubi Qafqaza, o cümlədən Azərbaycana köçürüldü. İlk olaraq "bidətçi" və "təriqətçi" (subbotniklər, molokanlar, baptistlər, duxoborlar) ruslar köçürülmüşdür.

Azərbaycana köçürülən rusların çoxu Muğanda məskunlaşdırıldı. Təsadüfi deyildir ki, XIX əsrin I yarısında Muğanda 20 min rusun yaşadığı 49 kənd olmuşdur. Ruslar Muğanda daha çox indiki Cəlilabad rayonunda (Lənkəran qəzası) məskunlaşmışlar. Məhz bu məskunlaşmanın nəticəsi olaraq burada Astraxanka, Andreyevka, Qriqoryevka, Petrovka, Prişib, Privolnoye, Pokrovka, Novoqolovka, Svetlaya Zarya və digər rus mənşəli yaşayış məntəqələri yaranmışdır.

Muğana köçürülən rusların bir qismi Göytəpədə yerləşdirilmişdir. Ruslar bura köçürüldükdən sonra ərazi Prişib adlandırılmışdır. Ölkəmiz yenidən müstəqilliyinə qovuşduqdan sonra Prişibin adı dəyişdirilərək tarixi Göytəpə adı bərpa edilmişdir. 1967-ci ildən şəhər statusu alan Göytəpənin tarixi-memarlıq abidələrindən biri



"Müqəddəs Olqa" kilsəsidir. Kilsə Bakı-Astara şose yolunun üstündə yerləşir.

Qırmızı kərpicdən hörülmüş bu kilsənin əsası 30 aprel 1868-ci ildə qoyulmuşdur. Kilsənin tikintisində Qafqazın general-qubernatoru Böyük knyaz Mixail Nikolayeviç Romanov və knyaginya Olqa Fyodorovnanın böyük rolu olmuşdur (Sabir Nəsiroğlu. Muğan salnaməsi. Bakı: 2014, səh. 58).

Altı günbəzdən ibarət olan kilsənin tikinti işləri, əsasən, yerli memarlar tərəfindən aparılmışdır. Məhz elə buna görə də kilsənin pəncərə və divarlarında Azərbaycanın milli-memarlıq üslubunun çalarları açıq-aşkar nəzərə çarpır. Kilsənin çöl divarları hər tərəfdən özündə xaç şəklini əks etdirir. Üç tərəfdə qapı yerləri var, onlar da xaç şəklində qurulmuşdur. Hətta içəridə şam yandırılan yerlər də xaçı xatırladır.

Ateizmin hökm sürdüyü Sovet dövründə digər məscid, kilsə və sinaqoqlar kimi "Müqəddəs Olqa" kilsəsi də dindarların üzünə bağlanmışdır. Sovet imperiyası parçalandıqdan sonra Cəlilabad rayonunun digər yaşayış məntəqələrində yaşayan ruslar kimi, Göytəpədə yaşayan rusların da əksəriyyəti Rusiyaya, özlərinin ata-baba torpaqlarına qayıtmışdır.

Kilsə dindarlar tərəfindən istifadə edilmədiyi üçün onun birinci mərtəbəsində Göytəpə şəhər kitabxanası yerləşdirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən, "Müqəddəs Olqa" kilsəsi "kilsə" adı altında 4177 inventar sayı ilə 1878-ci ilə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.

Qeyd edək ki, "Müqəddəs Olqa" kilsəsinin sənədlərdə əsasının 30 aprel 1868-ci ildə qoyulduğu göstərilsə də, kilsənin çöl divarında asılmış lövhədə onun 1878-ci ildə istifadəyə verildiyi qeyd olunmuşdur.

**İldırım ŞÜKÜRZADƏ,**
Lənkəran rayonunun Havzava kənd tam orta məktəbinin tarix müəllimi



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*



## Abdurahmanov Əfqan Ağasəf oğlu

Şanlı qələbəni bizə yaşadanlardan biri - Azərbaycan Silahlı Qüvvələrinin şəhid polkovnik-leytenantı, Vətən Müharibəsi Qəhrəmanı Abdurahmanov Əfqan Ağasəf oğlu 25 mart 1976-cı ildə Bakı şəhərində anadan olub. O, 1982-1993-cü illərdə Binəqədi rayonunda Vahid Əzizov adına 30 nömrəli tam orta məktəbdə təhsil alıb. 1995-1997-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olduqdan sonra, 1997-2001-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. 2001-2002-ci illərdə isə Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində təcrübədə olub. Burada Əfqan zabit kimi peşakarlıq səviyyəsini yüksəldib, daha müasir hərbi peşə bacarıqlarına və vərdişlərə yiyələnib. Artıq bir il sonra (2002-ci ilin iyul ayı) Gəncə şəhəri N-saylı hərbi hissədə xidmətə başlayıb. Qulluq etdiyi müddətdə Türkiyə, Çexiya və Çində Müdafiə Nazirliyinin Sərəncamı ilə müxtəlif kurslara, hərbi təlimlərə qatılıb.

Əfqan Abdurahmanov Vətənə xidmət etdiyi dövrdə hərbi nailiyyətlərinə görə "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" yubiley, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli , "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalları ilə təltif edilib.

2020-ci ilin sentyabrın 27-də Ordumuzun apardığı qətiyyətli əks-hücum əməliyyatları cəbhənin bütün istiqamətlərində uğurla davam etdi. Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərdəki mövqelərinə sarsıdıcı zərbələrlə geri çəkilməyə məcbur edildi. İlk günlərdə işğaldan azad edilən ərazilərimizdən biri də Murovdağ silsiləsindəki zirvələrdən biri idi. Əfqan Abdurahmanovun rəhbərliyi ilə əməliyyat keçirilən zaman hərbçilərimiz qalın sis-dumana düşür. Duman o qədər sıx olur ki, bir addım irəlini görmək mümkün olmur. Ərazi qayalı, yarğanlı bir yer olduğundan bir səhv addım ölüm, səhv istiqamətə getmək isə düşmən mühasirəsinə düşmək və ya döyüş əməliyyatının pozulması demək idi. Əfqan tabeçiliyində olan əsgərləri bu çətin vəziyyətdən çıxarmalı və döyüş tapşırığını yerinə yetirməli idi. O əsgərlərinə deyir: öndə mən gedəcəm, bir-birinizin kəmərindən tutun və ardımca gəlin. Onun ən çətin anda düzgün qərar çıxarmaq peşəkarlığı, relyefi düzgün qiymətləndirməsi sayəsində hərbçilərimiz heç bir itki vermədən sağ-salamat döyüş mövqeyinə çıxır və Murovdağ zirvələrindən birinin düşməndən azad edilməsində qəhrəmanlıq göstərir, zirvəyə Azərbaycan bayrağını sancır.

Bu əməliyyat nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nöqtələri nəzarətə götürülür. Əldə edilən üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verirdi. Əməliyyatın uğurlu keçməsində Əfqan və onun döyüşçülərinin böyük rolu oldu. Zirvəyə bayraq sancan Əfqan həyatının ən xoşbəxt gününü yaşadı.

Qarşıda isə Suqovuşanın düşmən işğalından azad edilməsi kimi çox mühüm əməliyyat dururdu. Çünki Suqovuşan yaşayış məntəqəsinin həm hərbi, həm də strateji əhəmiyyəti vardı. O, Ağdərə və Sərsəng su anbarı istiqamətində mühüm əhəmiyyətə malik yolların nəzarətdə saxlanılmasına imkan verirdi. Bundan başqa, Suqovuşan yaşayış məntəqəsinin azad olunması cəbhənin həmin istiqamətində böyük bir ərazinin, o cümlədən Ağdərənin və digər məntəqələrimizin də işğalçılardan təmizlənməsi üçün ordumuza böyük üstünlük yaradırdı.

Bu səbəblərdən də yaşayış məntəqəsinin azad edilməsi ordumuzun qarşısında duran ən mühüm vəzifələrdən biri idi. Əvvəlcə Suqovuşanın ətrafındakı yüksəkliklər, postlar düşməndən təmizləndi. Düşməndən təmizlənən postlardan biri də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun şəhid olduğu post idi.

2020-ci il oktyabrın 10-da Əfqan Abdurahmanovun rəhbərliyi ilə hərbçilərimiz Ağdərə ətrafında yerləşən yüksəkliklərdən birinin düşməndən təmizlənməsi əməliyyatını həyata keçirən zaman ona bildirilir ki, 20 dəqiqədən sonra humanitar atəşkəs qüvvəyə minir, hücum əməliyyatı dayandırılsın. Əfqan əmrə tabe olur və hücumu dayandırır. Düşmən isə humanitar atəşkəs rejimini kobud şəkildə pozaraq, hərbçilərimizin olduğu 951-ci yüksəkliyi tankla atəşə tutur. O, partlayış dalğası nəticəsində şəhid olur. Əslən Qəbələdən olan qəhrəmanımız rayonun Əmirvan kəndində dəfn olunub.

*Şəhidimiz ailəli idi, onun bir qız, bir oğul övladı var.*

***Cəsarəti ilə adını tariximizin şanlı səhifəsinə əbədi yazan polkovnik-leytenant Abdurahmanov Əfqan Ağasəf oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə və "Vətən Müharibəsi Qəhrəmanı" adı ilə təltif edilib.***



## Abdurahmanov Elvin Əbülfəz oğlu

Vətən müharibəsində mərdliklə döyüşərək şəhidlik məqamına yüksələn qəhrəman oğullarımızdan biri də şəhid gizir Abdurahmanov Elvin Əbülfəz oğludur. O, 1996-cı il oktyabrın 1-də Qəbələ rayonunun Əmirvan kəndində anadan olub. 2003-2014-cü illərdə Yadigar Vəliyev adına Əmirvan kənd tam orta məktəbində təhsil alıb. Elvin 2014-cü ilin oktyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Qəbələ rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. O, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunda yerləşən "N" saylı hərbi hissəsində xüsusi təyinatlı əsgər kimi xidmət edib. Hərbi qulluqda olduğu müddətdə özünü nizam-intizamlı, vəzifə borclarına layiqincə yanaşan, üzərində məsuliyyəti dərindən dərk edən əsgər kimi göstərib.

Əsgəri xidmətini başa vurduqdan sonra sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək 2017-ci ildə Qusar rayonunda yerləşən "N" saylı hərbi hissəyə manqa komandiri vəzifəsinə təyinat alıb. Elvin 2018-ci ildə "Gizir hazırlığı" kursuna gedib, 6 aylıq kurs keçdikdən sonra "kiçik gizir" rütbəsi alaraq Xüsusi Təyinatlı Qüvvələrin "N" saylı hərbi hissəsində xidmətinə davam edib.

Vətən qarşısında müqəddəs borcunu şərəflə yerinə yetirən hər bir qeyrətli Azərbaycan vətəndaşı kimi, Elvinin də ən böyük arzusu məhz işğal altındakı torpaqlarımızın azadlığı və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması idi. Elə buna görə də, 2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini pozub Azərbaycana qarşı hücum etməsi və ordumuzun əks-hücuma keçməsi ilə başlayan Vətən müharibəsini sevinclə qarşılayıb. Elvin bu müharibədə qısa döyüş yolu keçsə də, göstərdiyi şücaət və qəhrəmanlıqları ilə adını tarixə yazdırıb. O, cəbhənin Füzuli istiqamətindən döyüşlərə başlayıb. Onların qrupu ən öndə gedənlərdən idi. O, Füzuli və Cəbrayıl rayonunun bir neçə kəndinin işğaldan azad edilməsində iştirak edib. Oktyabrın 2-də Füzuli rayonu ərazisində yüksəkliklər uğrunda gedən döyüşlərdə yaxınlığına düşən növbəti mərmidən qəlpə yarası alan Elvin şəhidlik zirvəsinə ucalıb. O, anadan olduğu Əmirvan kəndində dəfn olunub.

*Elvin nişanlı idi, onun iki qardaşı var.*

***Şücaəti ilə fərqlənən qəhrəman gizir Abdurahmanov Elvin Əbülfəz oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə və "Azərbaycan Bayrağı" ordeni təltif edilib.***

Hazırladı: **Ramil Hikmət**

# 20 YANVAR FACİƏSİNİN 33-CÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BAKIDA VƏ BÖLGƏLƏRDƏ SİLSİLƏ TƏDBİRLƏR KEÇİRİLİB

Qanlı 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar Bakıda və bölgələrdə silsilə tədbirlər keçirilib.

DQİDK-nın bölgə şöbələrinin təşkilatçılığı ilə baş tutan tədbirlərdə bölgə şöbələrinin və digər qurumların əməkdaşları, rayonların dini icma sədrləri və din xadimləri, QMİ-nin səlahiyyətli nümayəndələri, dini konfessiyaların üzvləri, şəhid valideynləri və qazilər, eləcə də müəllimlər, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları birlikdə bölgələrdəki Şəhidlər Xiyabanını ziyarət ediblər. Şəhidlərin əziz xatirəsi yad edilib və ruhlarına dualar oxunub. Keçirilən tədbirlərdə qeyd edilib ki, 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli



müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Vurğulanıb ki, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Məhz Ümummilli Lider Heydər Əliyevin bu cəsarətli addımı sayəsində dünyanın mütərəqqi qüvvələri də Azərbaycan xalqının məruz qaldığı bu dəhşətli və amansız terroru qətiyyətlə pislədi. Çıxışlar zamanı natiqlər bildiriblər ki, gənclərimiz tarixi həqiqətləri bilməlidir. Yaxın tariximizin öyrənilməsi və araşdırılması vacib vəzifədir. 1990-cı ilin 20 Yanvar faciəsi də gələcək nəsillərə olduğu kimi çatdırılmalıdır. Qan yaddaşımıza əbədi həkk olunmuş 1990-cı ilin 20 Yanvar hadisələri tariximizin özündə faciə və qəhrəmanlığı ehtiva edən unikal səhifəsi, Azərbaycanın sonrakı taleyinə əhəmiyyətli təsiri olan dönüş anıdır.

# BÖLGƏLƏRDƏ DİN XADİMLƏRİ VƏ DİNİ İCMA SƏDRLƏRİNİN İŞTİRAKI İLƏ GÖRÜŞLƏR BAŞ TUTUB



Yanvar ayı ərzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) bölgə şöbələri, rayon icra hakimiyyətləri, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) rayon nümayəndəlikləri və rayonlardakı qazılıqların birgə təşkilatçılığı ilə bölgələrdə dini icmaların 2022-ci il üçün yekun hesabatı və cari ildə görüləcək işlərə həsr olunmuş görüşlər keçirilib. Bu qəbildən olan görüşlər:

**9 yanvar** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad Rayon İcra Hakimiyyəti (RİH) və QMİ-nin Sabirabad rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Sabirabadda;

**10 yanvar** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və QMİ-nin Qərb bölgəsi üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Gəncədə;

**12 yanvar** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və rayon qazılığının birgə təşkilatçılığı ilə Balakəndə;

**17 yanvar** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlıda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və rayon qazılığının birgə təşkilatçılığı ilə Zaqatalada;

**18 yanvar** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı və Quba, Xaçmaz, Qusar, Şabran, Siyəzən rayonlarının din xadimləri və dini icma sədrlərinin iştirakı ilə;

**23 yanvar** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Qax RİH və QMİ-nin rayon nümayəndəliyinin birgə təşkilatçılığı ilə Qax şəhər "Mərkəzi Cümə" məscidində baş tutub.

DQİDK-nın bölgə şöbələrinin, həmçinin rayon icra hakimiyyətlərinin əməkdaşlarının, QMİ-nin rayon üzrə səlahiyyətli nümayəndələrinin iştirakı ilə təşkil olunan görüşlərdə dini icmalar və din xadimlərinin ötən ilin yekun hesabatı dinlənilib və 2023-cü ildə görüləcək işlər müzakirə olunub, din xadimlərinə və dini icma sədrlərinə müvafiq tapşırıq və tövsiyələr verilib. İştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb. Ötən il ərzində dini icmalar və din xadimlərinin fəaliyyətinin məhsuldar olduğu vurğulanaraq, cari ildə də onlarla qarşılıqlı fəaliyyətin müxtəlif istiqamətlər üzrə davam etdirilməsi nəzərdə tutulub.

# ZƏRDABDA VƏHDƏT NAMAZI QILINIB

Yanvarın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Ucar, Göyçay, Kürdəmir və Zərdab rayonunda fəaliyyət göstərən din xadimləri və dini icma sədrlərinin iştirakı ilə Zərdab şəhər "Cümə" məscidində vəhdət namazı qılınıb.

Bununla bağlı keçirilən tədbirdə Vətən müharibəsində şəhid olanların xatirəsinə ucaldılmış abidə ziyarət olunub. Şəhidlərimizin, o cümlədən 20 Yanvar qurbanlarının xatirəsi yad edilib və ruhlarına dualar oxunub.



# "ÖLÜLƏR KİTABI"NDAN OVSUNLARIN YAZILDIĞI QƏDİM PAPİRUS AŞKARLANIB



"ArkeoNews"un verdiyi xəbərə görə, Misirin Sakkara bölgəsində çalışan arxeoloqlar son yüzillikdə ilk dəfə olaraq 16 m uzunluğunda qədim papirus aşkar ediblər.

Sakkara Misirin qədim paytaxtı Memfisin geniş nekropoludur (qədim şəhərlərin kənarında böyük qəbiristan), YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir. Burada ondan çox piramida, heyvan dəfnləri və xristianlığa mənsub qədim qibti monastırlarının xarabalıqları var.

Misirin Qədim Əsərlər Ali Şurasının baş katibi Mostafa Vəziri bildirib ki, papirus Təhrirdəki Misir Muzeyinin laboratoriyasında bərpa edilib və ona "Vəziri papirusu" adı verilib. Onun sözlərinə görə, bu papirus bir misirli tərəfindən kəşf edilən ilk papirusdur və həmin misirlinin adını daşıyır.

Sakkarada 250 tabutdan birində tapılan papirus "Ölülər Kitabı" və ya "Ölü Fironların Kitabı" adlanan kitabdan mətnləri ehtiva edir. "Ölülər Kitabı" qədim Misirdə istifadə olunan dəfn mətnidir və qədim misirlilərin ölülərə qəbir həyatında kömək etdiyinə inandıqları ovsun və sehrləri ehtiva edir. Kitab 18-ci sülalə (e.ə. 1550-1292) dövrünə aid edilir.

Vəziri əlavə edib ki, Böyük Misir Muzeyinin açılışında nümayiş etdiriləcək papirus hazırda müasir ərəb dilinə tərcümə olunur.

"Ölülər Kitabı"ndan sehrləri ehtiva edən 16 metrlik papirusun tapılması qədim Misirdə ölülər səltənətinə keçmə ilə bağlı inanclara yeni işıq sala bilər.

# QISA-QISA



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) mütəmadi olaraq dini radikalizm və ekstremizmlə mübarizə, milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural ənənələrimizin təşviqi, həmçinin radikalizmə və fanatizmə alternativ kimi ənənəvi İslamın dirçəldilməsi məqsədilə hərtərəfli maarifçilik işini özündə ehtiva edən kompleks tədbirlərin həyata keçirilməsi məqsədilə respublikanın bütün bölgələrində dini maarifləndirmə istiqamətində tədbirlər təşkil edir. Dövlət Komitəsi ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini 2023-cü ilin yanvar ayı ərzində də davam etdirmişdir.

Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**9 yanvar** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Kürdəmir şəhər "İmam Rza" məscidində "Milli-mənəvi və dini dəyərlərin təbliğində din xadimlərinin rolu" mövzusunda;

**10 yanvar** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Ş.Qurbanov adına 3№-li tam orta məktəbdə "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;

**11 yanvar** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərin təbliği və dini maarifləndirmənin effektliliyinin artırılmasında medianın rolu" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba-Xaçmaz Regional Təhsil İdarəsinin Siyəzən rayonu üzrə Təhsil Sektorunun birgə təşkilatçılığı ilə Siyəzən şəhər 6 saylı məktəb-liseydə "Dini fanatizm, radikalizm və ekstremizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax şəhər T.İsmayılov adına 5 №-li tam orta məktəbində "Dini radikalizm, fanatizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qusar rayonu üzrə səlahiyyətli nümayəndəliyi və Qusar Peşə Liseyinin birgə təşkilatçılığı ilə "Dini radikalizm və ekstremizm: fəsadları və qorunma yolları" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Ağsu rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Ağsu şəhər 4 saylı tam orta məktəbində "Heydər Əliyev - dahi şəxsiyyət" mövzusunda;

**12 yanvar** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Goranboy RİH-in birgə təşkilatçılığı ilə rayonun Heydər Əliyev Mərkəzində Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Dəmir Yumruq" sənədli filminin nümayişi;

**13 yanvar** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonu Çiyni kənd "Hacı Ağamirzə" məscidində "Azərbaycançılıq və dini dəyərlər" mövzusunda;

**17 yanvar** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux şəhər 2 saylı tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planına əsasən, Balakən rayonu Katex kənd tam orta məktəbində "Heydər Əliyev: Müasir Azərbaycanın qurucusu" mövzusunda;

**18 yanvar** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Zərdab rayonu Gənclər və İdman İdarəsi, Gənclər evi sosial xidmət müəssisəsinin təşkilatçılığı ilə milli-mənəvi dəyərlərin təbliği mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhərində yerləşən hərbi hissədə "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda;

**19 yanvar** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Şəmkir RİH, rayon Təhsil və Polis şöbələrinin birgə təşkilatçılığı ilə Düyərli kənd 2 saylı tam orta məktəbində "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in birgə təşkilatçılığı ilə Göygöl rayon Mərkəzi kitabxanasında "20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Ağsu rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Ağsu şəhər Mərkəzi Kitabxanasında "20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və QMİ-nin Goranboy rayonu və Naftalan şəhəri üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda;



**24 yanvar** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhərində yerləşən N saylı hərbi hissədə; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, Gənclər və İdman İdarəsi və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində Əliabad qəsəbəsi 3 №-li tam orta məktəbində "Milli dövlətçiliyimizin möhkəmlənməsi: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda;

**25 yanvar** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayon H.Zərdabi adına Çobanabdallı kənd tam orta məktəbində "Dini radikalizm və ekstremizm: fəsadları və qorunma yolları" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Dini fanatizm və radikalizmin mahiyyəti" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax şəhər N.Allahverdiyev adına 2№-li tam orta məktəb-liseyində "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Goranboy rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Gənclərin radikal təsirlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda;

**26 yanvar** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı Rayon Polis Şöbəsi və R.Tağıyev adına rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə Boradigah qəsəbə 2 saylı tam orta məktəbində; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayonunun M.Əliyeva adına Əlisoltanlı tam orta məktəbində; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göyçayda və Zərdab rayonunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Kürdəmir RİH və QMİ-nin bölgə qazılığının birgə təşkilatçılığı ilə Kürdəmirdə "Gənclərin radikal təsirlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK və Balakən RİH-in birgə təşkilatçılığı ilə Balakən rayonu 1 nömrəli Peşə məktəbində "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda;

**27 yanvar** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Ağsu rayon Gənclər və İdman idarəsi və Ağsu rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda;

28 yanvar – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Gənclik Akademiyası İctimai Birliyinin birgə təşkilatçılığı ilə Ucarda "Milli-mənəvi dəyərlərin təbliğində gənclərin rolu" mövzusunda;




**30 yanvar** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH, rayon Mərkəzi Kitabxana Sistemi və rayon "Gənclər evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda;

**31 yanvar** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Mingəçevir şəhəri "Heydər" məscidində "Dini ekstremizmə qarşı mübarizədə dini qurumların rolu" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müəllimlər və şagirdlərin, hərbçilərin, ictimaiyyət nümayəndələri və gənclərin iştirakı ilə keçirilən tədbirlərdə milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolundan danışılıb. Qeyd olunub ki, hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən birini də milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi təşkil edir. Həmçinin vurğulanıb ki, Prezident cənab İlham Əliyevin başçılığı ilə dini sahəyə göstərilən diqqət və qayğı nəticəsində bu gün ölkəmizdə milli və dini dəyərlər, dövlət-din münasibətləri yüksək inkişaf səviyyəsinə çatmışdır. Natiqlər mədəni irsimizin dünyada tanıdılmasında medianın rolunu vurğulayıblar, milli-mənəvi dəyərlərin təbliğində din xadimlərinin üzərinə böyük məsuliyyət düşdüyünü diqqətə çatdırıblar.

Məktəblilərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyini vurğulayan natiqlər bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs ediblər. Gənclərin radikal dini təsirlərdən, dini radikalizmdən qorunmasında təhsilin önəminə toxunublar. Tədbirlərdə həmçinin narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından, ölkəmizdə mövcud olan tolerantlıq ənənələrindən də bəhs olunub.

Çıxışlar zamanı Ümummilli Lider Heydər Əliyevin millət və vətən sevgisindən qaynaqlanan fəaliyyəti haqqında danışılıb. Qeyd edilib ki, Ulu Öndər milli mənafeyi hər şeydən üstün tutan zəmanəmizin böyük siyasi və dövlət xadimi, milli dövlət quruculuğumuzun memarıdır. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi tarixi hadisədir. Ulu Öndər daim Azərbaycanın inkişafı naminə çalışıb, nəticədə ölkəmiz dünyanın aparıcı ölkələrindən birinə çevrilib.

Çıxışlar zamanı 20 Yanvar hadisələri fonunda xalqımızın müstəqillik uğrunda mübarizəsindən danışılıb. Qeyd edilib ki, Ümummilli Lider Heydər Əliyev həmin günü xalqımızın qürur günü və qəhrəmanlıq nümunəsi kimi qiymətləndirib. Azərbaycan xalqının başına gətirilən qanlı faciəyə məhz Ulu Öndər sayəsində ilk siyasi-hüquqi qiymət verilib. O, 1990-cı il yanvarın 21-də Sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək qanlı faciənin təşkilatçılarına qarşı dünya ictimaiyyəti önündə ifşaedici və cəsarətli bəyanatla çıxış edib.

Tədbirlərdə "Heydər Əliyev və Azərbaycançılıq", "Heydər Əliyev - dahi şəxsiyyət", "Dəmir Yumruq", "Oxu" sənədli filmləri nümayiş olunub, iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR MƏLUMATLARI

### "Şəki rayonu Oxud kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 30 mart 2010-cu il
Qeydiyyat №-si: 10010A2 – 264

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rəsulov Tural Ərzuman oğlu, Səlimova Fatma Səfər qızı, Camaləddinov Cumay Mirsalih oğlu, Məsimov Nüsrət Abid oğlu, Hümmətova Gülbəniz Tahir qızı, Səlimov İbrahim Tahir oğlu, Abdullayev Sərxan Məhərrəm oğlu, Kərimov Araz Əbil oğlu, İsmayılov Sahib Hümmət oğlu, Səfərov Təbriz Azad oğlu, Qaffarlı Babaxan Rəhman oğlu, Əhmədov Oruc Dursunəli oğlu, Abdullayev Adil Abdulla oğlu, Mustafayev Əfqan Rövşən oğlu, Əhmədov Allahverdi Vasif oğlu, Mahmudova Tangiz Şəhliyar qızı, Abdullayeva Ülkər Abbas qızı, Rəcəbova Gülşəndə Qurban qızı, Eminova Yeganə Aydın qızı, Əsgərov Orxan İsrafil oğlu, Həmidov Abdulkərim Qurban oğlu, Bəkirov Qüdürət Məmməd oğlu, Məmmədov Qurban Şəfayət oğlu, Həmidova Surayə Nurəli qızı, Camaləddinov Qoşqar Cumay oğlu, Məmmədova Səkinə Şəhliyar qızı, Camaləddinov İlqar Cumay oğlu, Əsgərova Təhminə Zahid qızı, Sadıqova Pərvanə Qafıl qızı, Alxasov Ramazan Oruc oğlu, Quliyev Hikmət Oruc oğlu, Səlimova Şərafət Məhərrəm qızı, Səlimov Tahir Səfər oğlu, Xasməmmədov Hikmət Mirzalı oğlu, Əhmədov Fərhad Şəmsəddin oğlu, Əhmədova Mahirə Nazim qızı, Aydınlı Ayxan İsmayıl oğlu, Süleymanov Rasim Məhərrəm oğlu, Süleymanov Sənan Rasim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 29 dekabr 2022-ci il

### "Şəki rayonu Böyük Dəhnə kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 27 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 325

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cabbarov Məmməd Əziz oğlu, Səlimov Hacalı Şəhmir oğlu, Mustafayev Osman Məmməd oğlu, İdrisov Adil Tacəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Hüseynov Çingiz Musa oğlu, Cabbarov Natiq Məmməd oğlu, Salahov İsmayıl Məmməd oğlu, Yusifov Sərxan Əyyub oğlu, Sadıxov Tehran Əvvəl oğlu, Hüseynova Nailə Elçin qızı, Səlimov Şahin Hacalı oğlu, Məmmədkərimov Rəfayıl Məmmədkərim oğlu, Rəşidov Oktyabr Əmrəslan oğlu, Alxasov Surxay Qinyaz oğlu, Hüsöyinova Həcər İsa qızı, Hüsöyinov İlham Sahib oğlu, Səfərəliyeva Firdövsi Şahid qızı, Hüsöyinov Sahib Musa oğlu, Baxışova Qərənfil Qinyaz qızı, Baxışova Gülarə Rəsul qızı, Hüseyinov Səfər Musa oğlu, Hüseynova Sadət Hüseyn qızı, Pirməmmədova Ulduz Sabir qızı, Cəbiyev Vüsal Şahid oğlu, Həbibov Aslan Əsgər oğlu, Həbibova Arzu Nəsir qızı, İsmayılov Yusif Nurməmməd oğlu, Mustafayev Elşad Mustafa oğlu, Seyidov Fizuli Diqqət oğlu, Yunusov Məhərrəm Zərqələm oğlu, İbrahimov Rizvan Abozər oğlu, Alıyev Rasul Alıkişi oğlu, İbrahimov Etibar Vəli oğlu, Xəlilov Tehran Bayraməli oğlu, Pirməmmədov Əkbər Tofiq oğlu, Sadıxova Diləzbər Xəlif qızı, Əbdurəhimov Hikmət Neymət oğlu, Babayev Əhməd İsmayıl oğlu, Hacıyev Vahab Nusrət oğlu, Əmikişiyev Firqət Vasif oğlu, Rasulov Tufan Əyyub oğlu, Rəşidov Fərrux Fikrət oğlu, Abdullayev Niman Mösüm oğlu, Novruzov Yusif Nəsib oğlu, Sadıqova Gülnisə Bayram qızı, Mənəfov Azad Mənəf oğlu, Hüseynov Cəfər Musa oğlu, Mustafayeva Validə İsmayıl qızı, Həbibova İradə Bəhçət qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 29 dekabr 2022-ci il

### "Balakən rayonu Katex kəndi "Mərkəzi" məscidi" dini icması

Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116A – 724

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Soltanov Ramazan Abdulla oğlu, Umlayev Hacımuhuma Ammahacı oğlu, Əhmədov Əhma Nurov oğlu, Babayev Xəlilrəhman Məhəmməd oğlu, Qeybullayev Fərhad Səmədağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Abaçiyev Məhəmməd Əli oğlu, Emçiyev İsmayıl Mahama oğlu, Umarov Vüsal Muzamiddin oğlu, Babayev Umarpaşa Hacıramazan oğlu, Süleymanov Möhmə Əhməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 29 dekabr 2022-ci il

### "Sabirabad rayonu Cavad kəndi "Şeyx Ağa Şirvani" məscidi" dini icması

Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C – 833

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qəhrəmanov Pəhlivan Balış oğlu, Həsənov Böyükağa İsmayıl oğlu, Astanov Eldar Ağaibrahim oğlu, Astanov Bəxtiyar Ağaibrahim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Babayev Elşən Məcnun oğlu, İsmayılov Afil İsa oğlu, Abdullayev Əkbər Xanoğlan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 09 yanvar 2023-cü il

### "Şəki şəhər mərkəzi "Cümə" məscidi" dini icması

Qeydiyyat tarixi: 07 may 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 344

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həbibullayev Qeysər Vahid oğlu, Rəsulov İrza Abdulla oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Hümmətov Radiq Rafiq oğlu, Süleymanov Məmməd Mahmud oğlu, Mahmudov Rahim Novruz oğlu, Babayev Rövşən Əsgər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 09 yanvar 2023-cü il

### "Şəki rayonu Qozlubulaq kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 31 may 2022-ci il
Qeydiyyat №-si: 100122C – 963

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əkbərova Sumayə Əziz qızı dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Babayev Amil Kamil oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 12 yanvar 2023-cü il

### "Oğuz rayonu Kərimli kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C – 704

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İbrahimxəlilov Qabil Zabur oğlu, Məmmədova Kişbər Bayram qızı, Hacıyev Rüfət Bayram oğlu, Çələbiyev Mürvət Məhəmməd oğlu, Mahmudov Əbülfət Abdurrahman oğlu, Əfəndiyev Aydın Mirümər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Kərimov Dağlar Xanlar oğlu, Məmmədov Tağı İlham oğlu, Mahmudov Əfqan Mahmud oğlu, İsmayılov Azər Bədrəddin oğlu, Hüseynov Mais Başarət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 yanvar 2023-cü il

### "Şəki rayonu Qoxmuq kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C – 707

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Salamov Gülməmməd Şirəli oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Məmmədov Zaur Oruc oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 18 yanvar 2023-cü il

### "Şəki rayonu Qudula kənd məscidi" dini icması

Qeydiyyat tarixi: 01 iyul 2011-ci il
Qeydiyyat №-si: 100111A1 – 542-6

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Şaban Zahid oğlu, Məmmədov Vacib Şaban oğlu, Salmanov Elxan Sabir oğlu, Xəlilov Namiq Nurəddin oğlu, Bilalov İsfəndiyar Rəsul oğlu, İbrahimov Şahin Şakir oğlu, Bəkirov Eyyüb Vahid oğlu, Tapdıqov Nüsrət Əhmədiyə oğlu, Bəkirov Teymur Vahid oğlu, Nəbiyev Asim Abdurəşid oğlu, Muradov Yasin Asim oğlu, Mustafayev Cavanşir Yavər oğlu, İmanov Mahmud Kamal oğlu, İbrahimov Nüsrət Afər oğlu, Cumayev Elşən Sadəddin oğlu, İlyasov Ziyad Kamal oğlu, Seyidov Rəhman Bəhram oğlu, Xəlilov Nurəddin Əhməd oğlu, Seyidov Bəhram Rəhman oğlu, Teymurov Xanlar Peykəs oğlu, Salmanov Qabil Sabir oğlu, Mustafayev Xanlar Yadigar oğlu, Muradov Əbülfəz Əbülfət oğlu, Salmanov Bayram Oktay oğlu, Mahmudov Habil Qurbanəli oğlu, Əzizov İlham Hümmət oğlu, Həsrətov Vələmməd Nadir oğlu, İbrahimov Zöhrab Afər oğlu, Məmmədov Fərrux Şükür oğlu, Teymurov Azər Peykəs oğlu, Qeybullayev Səbuhi Kənan oğlu, İsmaylov Cavanşir Əliyar oğlu, Məmmədov Zabit Fərrux oğlu, Kərimov Fərrux Abdurəşid oğlu, Məmmədova Nərgiz Bəhram qızı, Teymurova Fəridə Vəlyəddin qızı, Musayeva Günel Məmmədsaleh qızı, Muradova Mətanət Məhərrəm qızı, Salmanova Nüşabə Məzahir qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 18 yanvar 2023-cü il

davamı səh. 15

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR MƏLUMATLARI

əvvəli səh. 14

**"Qəbələ rayonu Böyük Əmili kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 28 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 146

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Fikrət Dursun oğlu, Sadıqov Arif Yaqub oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məmmədrəhimov Vüqar Bürhan oğlu, Abuzərov İlham Vaqif oğlu, Tahirov Zaur Səid oğlu, Cənnətov İzafəddin Şərif oğlu, Qaibov Qurban Əhməd oğlu, Hüseynov Bəhruz Başir oğlu, Hüseynov Başir Həmzə oğlu, Məmmədrəhimov İntiqam Burxan oğlu, Şabanov İlham Elman oğlu, Əhmədov Rüstəm Cavanşir oğlu, Mikayılov Pərviz Feytulla oğlu, Hacıyev Asim Fəxri oğlu, Məmmədov Sahib Eldar oğlu, Şxəmirov Qəhrəman Nəsrullah oğlu, Hacıyev Rəmzi Alim oğlu, Məmmədov Şikar Oruc oğlu, Qafarov İlfat Məhəmmədiyə oğlu, Şabanov Elman Məhəmmədiyə oğlu, Mahmudov İlkin Sahib oğlu, İsmayılov Nihad Cavid oğlu, Şirinzadə Tərvan Tehran oğlu, HacıyevZəfər Qüdrət oğlu, Zeynalov Xəyyam Allahverdi oğlu, Xəlilov Sədrəddin Nəsrəddin oğlu, Xəlilov Qədrəddin Nəsrəddin oğlu, Məmmədov Yaqub Məmili oğlu, Məmmədov Sakit Yaqub oğlu, Əhmədov Sübhan Adil oğlu, Ağayev Cavan Yusifəli oğlu, Mirzəmmədov Arzu Kamran oğlu, Hacıyev Alim Rəmzi oğlu, Mehdiyev Vaqif Məhərrəm oğlu, Qayıbov Aslan Yusif oğlu, Hacıyev Elvin Vidadi oğlu, Şükürov Tofiq Sədi oğlu, Əsədov Bəhruz Ağasəf oğlu, Mehdiyev Rasim Məhərrəm oğlu, Cənnətov Qəzənfər Şərafəddin oğlu, Hacıyev Vəlyəddin Məhyəddin oğlu, Mehdiyev Asif Məhərrəm oğlu, Məsimov Ağasalam Məsim oğlu, Zeynalov Qürbət İsrəfil oğlu, Kərimov Şahmar Süleyman oğlu, Sadıqzadə Elgün Ağasəlim oğlu, İsmayılov Elşən Rasim oğlu, Məmmədov Nemət Aydın oğlu, Cavadov Sərkər Ağabala oğlu, Mahmudov Elton Firidun oğlu oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 18 yanvar 2023-cü il

## ELAN

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 173 nömrəli, 23.04.2003-cü il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış "Ağsu rayonu Gəgəli kənd" dini icmasının şəhadətnaməsi, dini icmaya məxsus nizmamnamə, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 311 nömrəli, 28.09.1999-cu il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış "İsmayıllı rayonunun Aşıqbayram kəndində fəaliyyət göstərən kənd məscidi" dini icmasının şəhadətnaməsi, dini icmaya məxsus nizmamnamə, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 11 nömrəli, 08.06.1994-cü il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış "Şamaxı İlahiyyat məktəbi"nin şəhadətnaməsi, dini quruma məxsus nizmamnamə, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 129 nömrəli, 24.06.2002-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış "Qobustan rayonu Nəriman kənd" dini icmasının şəhadətnaməsi, dini icmaya məxsus nizamnamə, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

## NORVEÇDƏ DÜNYANIN ƏN QƏDİM RUNİK YAZISI TAPILIB



Qərb yazısının mənşəyinə dair ipucu verə biləcək "bütün runoloqların arzu daşı" Norveçdə tapılıb. Bu barədə "Ancient-origins" saytı məlumat verib.

Runik yazının məlum olan ən qədim dövrlərinə - 1800-2000 il əvvələ aid edilən bu daş ola bilsin ki, bu günə qədər tapılan ən qədim runik daşıdır. Daş Skandinaviyada erkən dəmir dövründə runik yazının inkişafı və istifadəsinə dair yeni maraqlı fikirlər ortaya qoyur.

Oslo Universitetinin Mədəniyyət Tarixi Muzeyinin yazılı mədəniyyət və ikonoqrafiya üzrə professoru, runoloq Kristel Zilmer son bir il ərzində bu daşın üzərində fəal işləmişdir. O, runik daşın üzərindəki yazıları tədqiq və təfsir etməyə çalışmışdır.

Daş tapıldığı yerə görə "Svingerudsteinen" və ya "Svingerud Stone" adlandırılmışdır. Oslo Universitetinin Mədəniyyət Tarixi Muzeyinin arxeoloqları Şərqi Norveç, Tirifjorden yaxınlığındakı məzar sahəsini araşdırıblar. Məzarın, yandırılmış sümüklərin və kömürün yaşını təyin etmək üçün istifadə olunan radiokarbon təyini və digər analizlər tapıntının eramızın 1-250-ci illərinə aid olduğunu göstərir. Professor Zilmer hesab edir ki, daşın üzərində run yazısını oymaq üçün bıçağın və ya iynənin ucundan istifadə edilmişdir.

Eramızın Roma dəmir dövrü kimi tanınan bu dövründə skandinaviyalılar və norveçlilər romalılarla təmasda olurdular. Bu, ilk növbədə, ticarət və ya Roma legionları ilə toqquşmalar nəticəsində baş verirdi. Bununla da tarixin digər dövrlərində, dünyanın hər yerində olduğu kimi, iki fərqli mədəniyyət və xalqın vəhdəti adət-ənənə, təşkilatlanma və yazılı mədəniyyət sahəsində yeni bir şeyin doğulmasına səbəb olmuşdur.

Avropa dillərində müasir əlifbanın əsas blokları kimi, runik əlifba da latın əlifbası kimi klassik əlifbalardan ilhamlanmışdır. Bu əlifbadan germanlar özlərinin run adlandırdıqları simvollarını yaratmışlar. Latın əlifbasının tətbiqinə qədər german əlifbasında runik simvollar üstünlük təşkil etmişdir.

Professor Zilmer bildirib ki, daş üzərində linqvistik əhəmiyyət daşımayan bir neçə növ yazı tapılıb. Daşın üzündə səkkiz run var ki, bunları latın əlifbasına keçirdikdə "idiberuq" kimi oxunur. Bu, hansısa qadın, kişi və ya ailənin adını ifadə edə bilər. Onun sözlərinə görə, "ola bilsin ki, kimsə yazını təqlid edib, araşdırıb və ya yazı ilə oynayıb. Bəlkə, kimsə run oymağı öyrənib". İstənilən halda Zilmer əmindir ki, bu tapıntı sayəsində runik yazının ilkin tarixi haqqında dəyərli məlumatlar əldə edə biləcəklər.

Yeni tapılan run daşı yanvarın 21-dən etibarən bir ay müddətində Oslo Universitetinin Mədəniyyət Tarixi Muzeyində nümayiş etdiriləcək.

## MEKSİKADA ASTEK MƏBƏDİ RƏSƏDXANA KİMİ İSTİFADƏ OLUNUB

Arxeoloqlar aşkar ediblər ki, asteklər Meksikadakı Tlalok dağında yerləşən məbəddən rəsədxana kimi istifadə edərək dəqiq kənd təsərrüfatı təqvimi hazırlayıblar. Bu barədə "Heritage Daily" məlumat yayıb.

"Proceedings of the National Academies of Sciences" jurnalında dərc olunan araşdırmada arxeoloqlar bildiriblər ki, fevralın 23 və 24-də Tlalok dağındakı düz daş sütun doğan günəşi göstərir.

Tlalok dağı Mexiko ştatındakı İkstapaluka və Teskoko bələdiyyələri ərazisində yerləşən sönmüş stratovulkandır. Asteklər "Tlalokan" adı verdikləri bu dağı yağış tanrısı Tlalokun yer üzündəki iqamətgahı hesab edir və ona sitayiş edirdilər. Yağış mövsümünün əvvəllərində Tlalokun şərəfinə bol qurbanlar və hədiyyələrlə müşayiət olunan mərasimlər keçirilirdi.

Bəzi alimlər hesab edirlər ki, məbəd piramidaları, məsələn, asteklərin paytaxtı Tenoçtitlandakı mərkəzi məbəd Tlalok dağının simvolik təsviridir. Arxeoloqlar Tlalok dağındakı məbədin xarabalıqlarında qazıntılar zamanı günəşin üfüqə nisbətən yüksəlməsi (və ya batması) mövqeyini göstərən daş təqvimlər aşkarlayıblar.

Professor Rafael Tenin tədqiqatına əsasən, astek təqvimində yeni ilin başlanğıcı fevralın 23-ü (qriqorian təqviminə görə) hesab edilirdi.

Tədqiqatçılar öz məqalələrində bildirirlər: "Yeni tapıntılar regionda yeni ilin başlanğıcı üçün ümumi tarixin müəyyən edilməsində və kənd təsərrüfatı təqviminin günəş təqvimi ilə sinxronlaşdırılmasında Tlalok dağının mühüm rol oynadığına dair fərziyyəni dəstəkləyir".

## LUKSORDAKI KARNAK MƏBƏDİNİN BÖYÜK HİPOSTİL ZALININ BƏRPASI BAŞA ÇATIB

"Ahram" xəbər agentliyinin verdiyi məlumata görə, Misirin Qədim Əsərlər Ali Şurasının baş katibi Mostafa Vəziri Luksordakı Karnak məbədinin böyük hipostil zalının (çoxsaylı neflərə sahib çox sütunlu salon) bərpasının başa çatdığını açıqlayıb.

Restavratorlar 37 sütunun səthini qum, toz və quş zibilindən təmizləyiblər. Mostafa Vəziri bildirib ki, bununla da sütunların orijinal naxışı və rəngləri üzə çıxıb. Bundan əlavə, Vəziri qeyd edib ki, layihənin birinci mərhələsi 2021-ci ilin iyul ayında zalın mərkəzində yerləşən açıq papirus formalı 16 sütunun bərpası ilə başlayıb.

Karnak qədim Misirdə ən böyük və mühüm dini kompleks idi. Buna görə də onun inkişafı 1000 ildən çox dövr ərzində dayanmadı. Yuxarı Misirin cənubunda, Luksor şəhərinin şərq sahilində yerləşən Karnak Orta və Yeni Krallıqlar ərazisində tikilmiş bir neçə məbəd, obelisk (sütun şəklində daş abidə) və ziyarətgahlardan ibarətdir.

Amun-Ra məbədi kral I Seti dövründə tikilmiş nəhəng hipostil zalı ilə xüsusilə məşhurdur. Sonralar Ptolemey hökmdarları və koptlar kompleksin hissələrini öz istifadələri məqsədilə dəyişmişlər.

# CƏMİYYƏT və DİN

№ 01 (375) YANVAR 2023-cü il


## HİNDİSTAN 2023-CÜ İLDƏ ƏHALİ SAYINA GÖRƏ ÇİNİ ÖTƏ BİLƏR

Hindistan bu il ərzində əhalinin sayına görə Çini ötə bilər.

Bu barədə "World Population Review" statistika təşkilatının tədqiqatında məlumat verilib.

Təşkilatın real vaxt rejimində təqdim etdiyi məlumata görə, hazırda Hindistanın əhalisi 1 milyard 422 milyon 706 min 266 nəfər, Çinin əhalisi isə 1 milyard 425 milyon 831 min 275 nəfərdir. Ekspertlərin fikrincə, Hindistan 2023-cü ildə əhali sayına görə Çini keçəcək. Hesablamalara əsasən, 2023-cü ildə Çində əhalinin illik artım tempi mənfi 0,1 faizdən mənfi 0,3 faizə qədər azala, Hindistan əhalisinin artım tempi isə müsbət 0,69 faizdən müsbət 0,92 faizə qədər yüksələ bilər.

Araşdırmada, həmçinin Hindistanda əhalinin sayının 2060-cı ildə 1,7 milyarda yüksələcəyi, Çin əhalisinin sayının isə 1,2 milyarda qədər azalacağı proqnozlaşdırılır.

## İNTERNETƏ QOŞULMA SÜRƏTİNİN ƏN YÜKSƏK OLDUĞU ÖLKƏLƏR

Analitiklər hər il müxtəlif ölkələrdə internetə qoşulma sürəti göstəricisinin orta qiymətini hesablayırlar.

"Vokruq sveta" nəşri xəbər verir ki, 2022-ci ilin yekunlarına görə, Birləşmiş Ərəb Əmirlikləri bu sahədə İspaniyanı ilk onluqdan sıxışdırıb, daha güclü irəliləyişə nail olan Çin isə orta göstəriciyə saniyədə 70 meqabit əlavə edib. Bütövlükdə ilk onluğa aşağıdakı ölkələr daxildir: Çili, Çin, Sinqapur, Tailand, Honkonq, ABŞ, Danimarka, BƏƏ, Monako və Rumıniya.

Mobil internet sahəsində vəziyyət bir qədər fərqlidir. Burada Çili ilk onluqda yoxdur. Qətər dövləti hələ futbol üzrə dünya çempionatı başa çatana qədər birinci yerə çıxıb (reytinq məlumatları təqvim ilini deyil, 2021-ci ilin noyabrından 2022-ci ilin noyabrına qədər olan dövrü əhatə edir). Kipr, Küveyt və Səudiyyə Ərəbistanı ilk onluqdakı yerlərini Danimarka, Makao və Bruneyə güzəşt etməli olublar.

## DÜNYANIN İNDİYƏDƏK QALAN ƏN QƏDİM AĞACLARI



Dünyanın ən qədim yeddi ağacı təbiətin həqiqətən nə qədər güclü və davamlı ola biləcəyini göstərir. İqlim dəyişikliyi səbəbindən illər ərzində bir çox ağac növlərinin nəsli kəsilsə də, bəzi ağac növləri sağ qalıb və bu gün də böyüyür. Bir ağacın neçə yaşı olduğunu dəqiq öyrənmək çətindir, çünki bunun üçün bir çox fərqli amillər var.

Dünyanın ən yaşlı ağacı nə az, nə çox, düz 80 min yaşlı Pandodur. Bu ağac ABŞ-ın Yuta ştatında, Fişleyk Milli Meşəsində yerləşir.

Jurupa palıdının yaşı isə 13 min ildir. Bu ağac ABŞ-ın Kaliforniya ştatında, Jurupa dağlarında bitir. Ağacın növü Palmer palıdıdır və 2009-cu ildə aşkar edilib.

2008-ci ildə İsveçin Dalarna əyalətinin Fulufjdllet dağında aşkar edilmiş Tjikko ağacının isə 9500 yaşı var. Növü Norveç ağacıdır. Bu növ təxminən 600 ildən bir eyni yerdə yeni bir gövdə salmaq və yenidən böyümək qabiliyyəti ilə tanınır. Ağacın yaşını onun kök sistemi vasitəsilə öyrənmək mümkündür.

Metuselah 4852 yaşlı şam ağacıdır. Bu ağac Kaliforniyanın İnyo qraflığında yerləşir. Ətrafı digər qədim ağaclarla əhatə olunduğundan, onun dəqiq yeri ictimaiyyətə məlum deyil. Bu isə ağacın təbii qorunması və mümkün qədər uzun müddət qalması üçün mühüm amildir.

"Llangernyw Yew" ağacı 4000-5000 ildir ki, Uelsin Konvey əyalətindəki Llangerniv kəndində Müqəddəs Digain kilsəsinin həyətindədir. Bu ağac həm yerli folklor nağıllarının əsas simvoludur, həm də cəmiyyətdə xüsusi maraq oyadır.

Sarv-e Abarkuh isə Aralıq dənizi sərvidir və təxminən 4500 yaşı olduğu güman edilir. Ağac bütün dünyada diqqəti cəlb edib. Çünki əfsanəyə görə bu ağacı Zərdüşt peyğəmbər əkib.

Çilinin Alerce Kostero Milli Parkındakı Qran Abuelo ağacının 3648 yaşı var. Bu, Cənubi Amerikadakı ən qədim ağacdır.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Fevral - 2023)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:28 | 07:50 | 12:54 | 16:17 | 18:13 | 19:16 |
| 2 | 06:27 | 07:49 | 12:54 | 16:18 | 18:14 | 19:17 |
| 3 | 06:26 | 07:48 | 12:54 | 16:20 | 18:15 | 19:18 |
| 4 | 06:25 | 07:47 | 12:55 | 16:21 | 18:17 | 19:19 |
| 5 | 06:24 | 07:46 | 12:55 | 16:22 | 18:18 | 19:20 |
| 6 | 06:23 | 07:45 | 12:55 | 16:23 | 18:19 | 19:21 |
| 7 | 06:22 | 07:44 | 12:55 | 16:24 | 18:20 | 19:22 |
| 8 | 06:21 | 07:43 | 12:55 | 16:25 | 18:21 | 19:23 |
| 9 | 06:20 | 07:42 | 12:55 | 16:26 | 18:23 | 19:24 |
| 10 | 06:19 | 07:41 | 12:55 | 16:28 | 18:24 | 19:25 |
| 11 | 06:18 | 07:40 | 12:55 | 16:29 | 18:25 | 19:26 |
| 12 | 06:17 | 07:38 | 12:55 | 16:30 | 18:26 | 19:28 |
| 13 | 06:16 | 07:37 | 12:55 | 16:31 | 18:27 | 19:29 |
| 14 | 06:15 | 07:36 | 12:55 | 16:32 | 18:28 | 19:30 |
| 15 | 06:14 | 07:35 | 12:55 | 16:33 | 18:30 | 19:31 |
| 16 | 06:13 | 07:33 | 12:55 | 16:34 | 18:31 | 19:32 |
| 17 | 06:11 | 07:32 | 12:55 | 16:35 | 18:32 | 19:33 |
| 18 | 06:10 | 07:31 | 12:55 | 16:37 | 18:33 | 19:34 |
| 19 | 06:09 | 07:29 | 12:55 | 16:38 | 18:34 | 19:35 |
| 20 | 06:08 | 07:28 | 12:55 | 16:39 | 18:35 | 19:36 |
| 21 | 06:06 | 07:27 | 12:54 | 16:40 | 18:37 | 19:37 |
| 22 | 06:05 | 07:25 | 12:54 | 16:41 | 18:38 | 19:38 |
| 23 | 06:04 | 07:24 | 12:54 | 16:42 | 18:39 | 19:40 |
| 24 | 06:02 | 07:22 | 12:54 | 16:43 | 18:40 | 19:41 |
| 25 | 06:01 | 07:21 | 12:54 | 16:44 | 18:41 | 19:42 |
| 26 | 06:00 | 07:20 | 12:54 | 16:45 | 18:42 | 19:43 |
| 27 | 05:58 | 07:18 | 12:54 | 16:46 | 18:43 | 19:44 |
| 28 | 05:57 | 07:17 | 12:53 | 16:47 | 18:44 | 19:45 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## 2023-CÜ İLDƏ OXUNMALI ƏN MARAQLI KİTABLAR

Dünya kitabsevərləri 2023-cü ildə bir neçə maraqlı kitabla tanış ola biləcəklər.

"The Independent" agentliyi xəbər verir ki, qiraəti sevənlər şahzadə Harrinin memuarlarından tutmuş Zadi Smitin yeni novellaları ilə tanış olmaq imkanı əldə edəcəklər.

"Şahzadə Harri tərəfindən ehtiyat" ("Spare by Prince Harry") əsərində Böyük Britaniya Krallığındakı bütün titullarından imtina edən şahzadə Harrinin xatirələri yer alıb. Ailəsini tərk etdikdən sonra həyat yoldaşı Meqan Marklla bərabər ABŞ-a köçən şahzadə anası Diananın yolu ilə getməyi düşünür. O, həyatını "doğulduğu şahzadə kimi deyil, çevrildiyi insan kimi" yaşamağa qərar verib.




Yeni zelandiyalı yazıçı Elenora Kettonun "Birnam meşəsi" (Birnam Wood by Eleanor Catton) kitabı partizanlardan bəhs edən psixoloji trillerdir.

Alis Uinsetin "Qadınlar niyə becərir" ("Why women grow") əsərində qadınları torpağa üz tutmağa vadar edən səbəblərdən danışılır. Özü də yaxşı bağban olan müəllif kitabında torpaqla işləməyin qaydalarından bəhs edir.

Bundan başqa, dünyaşöhrətli aktrisa, model, həmçinin iş adamı Paris Hilton "Paris Hiltonun xatirələri" (The Memoir by Paris Hilton), Liv Littl "Qızılgül suyu" ("Rosewater"), Deborah Levyi "Mavi avqust" ("August blue"), tanınmış kanadalı aktrisa Elliot Peyc "Pageboy" ("Nağıl qəhrəmanı") memuarı, Taylor-Dior Rumbl "Şərait" ("The situationship") və Zadi Smit "Fırıldaq" ("The fraud") novellası ilə bu yeni ildə oxucuların görüşünə gələcək.

### Yadigar söz

*Uilyam Ceyms*

*Əgər birinin ruhunu görmək istəyirsənsə,*
*ondan xəyallarını soruş.*


Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:** Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894